Azərbaycan Respublikası
Mədəniyyət Nazirliyi

F. Köçərli adına Respublika
Uşaq Kitabxanası



# Ədəbiyyatımızın əsil cəfakeşi
# Salman Mümtaz

Azərbaycan ədəbiyyatı tarixinin öyrənilməsi, ədəbi-bədii nümunələrin və əlyazmalarının toplanması, zəngin folklor xəzinəmizin tədqiqi sahəsində böyük xidmətləri olan Salman Mumtazın 140 illik yubileyi münasibətilə mərkəzi kitabxanaların uşaq şöbələri, MKS-nin şəhər, qəsəbə, kənd kitabxana filialları üçün hazırlanmış metodik vəsait

**Bakı – 2024**

**Tərtibçi:** **Aynurə Əliyeva**

**İxtisas redaktoru və buraxılışa məsul:** **Şəhla Qəmbərova**
*Əməkdar mədəniyyət işçisi*

**Ədəbiyyatımızın əsil cəfakeşi-Salman Mumtazın 140** illik yubileyi münasibətilə mərkəzi kitabxanaların uşaq şöbələri, MKS-nin şəhər, qəsəbə, kənd kitabxana filialları üçün hazırlanmış metodik vəsait /Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi, F. Köçərli ad. Respublika Uşaq Kitabxanası ; tərt.ed. A.Əliyeva; ixt.red. və burax.məsul Ş. Qəmbərova ; - Bakı : F. Köçərli ad. Respublika Uşaq Kitabxanası, 2024. - 68 s.

**©F. Köçərli adına Respublika Uşaq Kitabxanası, 2024**

***Mən üfüqlərdən doğmaqda olan yeni, qüdrətli türk dünyasını, ana Turanı görürəm. Turan bütün türk qövmlərini öz bayrağı altında toplaya bilən qüdrətli və ədalətli bir dövlət* olacaq. *Bu dövlət dünya xalqlarına əbədi sülh və səadət gətirəcək, dünyanın hər yerində haqq və ədaləti müdafiə edəcək, zülmə qarşı mübarizə* aparacaq...**

***Salman Mümtaz***

Xalq üçün yaşayanları xalq həmişə əziz tutur. Xalqa xidmət edənləri xalq yaşadır, əbədiləşdirir. Bu günlərdə anadan olmasının 140 illiyini qeyd etdiyimiz Azərbaycan ədəbiyyatı tarixinin öyrənilməsi, ədəbi-bədii nümunələrin və əlyazmalarının toplanması, zəngin folklor xəzinəmizin tədqiqi sahəsində böyük xidmətləri olan Salman Mümtazda belə görkəmli ədəbiyyatşünaslardandır. Salman Mümtaz XX əsr Azərbaycan ədəbiyyat və mədəniyyət xadimləri arasında ön sıradadır. O, mürəkkəb bir həyat yolu keçmiş, ziddiyyətli burulğanlara düşmüş, müxtəlif fikri cərəyanlar arasında özünə doğru yol tapa bilmişdir.

Onu bircə kəlmə ilə təqdim etmək mümkün deyil. Çünki ensiklopedik biliyə və zəngin təcrübəyə malik olan, dövrünün ən məşhur dillərini öyrənən, ağır həyat sınaqları görən Salman Mümtaz həm şair, həm yazıçı, həm publisist kimi fəaliyyət göstərmiş, elmi kitablar və ədəbiyyatşünaslığa dair çoxsaylı məqalələr yazmışdır.

Salman Mümtaz tariximizin mübarizələr, çırpınışlar, axtarışlar, dövründə - əsrin əvvəllərində fəaliyyətə başlamışdır. Həm də uzun müddət Azərbaycandan xeyli uzaqlarda yaşamış, o mühitin ab-havası ilə pərvəriş tapmışdı.

Əlli dörd illik ömrünün otuz ildən çoxunu ədəbiyyat tariximizin öyrənilməsinə həsr etmiş

Salman Mümtaz şair və alim - mətnşünas kimi şöhrət qazanmışdır. Onun ədəbi-elmi fəaliyyəti ötən əsrin sonlarından başlayaraq XX əsrin mürəkkəb şəraitində inkişaf etmiş, daha çox yüksəlmişdir.
*Böyük vətəndaş, yorulmaz araşdımaçı və ərdəmli insan Salman Mümtaz gördüyü işləriylə torpağını və millətini şərəfləndirən azmanlardandır.*

Dahi sənətkarımız Salman Mümtazın bu il 140 yaşı tamam olur. Bu münasibətlə hazırladığımız vəsait iki hissədən ibarətdir.

I hissə *"Haqq yolçusu Salman Mümtaz"* adlanır. Vəsaitdə dahi mütəfəkkirin həyat və yaradıcılığından bəhs edilir. *"İstedadlı ədəbiyyatşünas, alim, yorulmaz tədqiqatçı"* adlanan II hissədə isə onun yaradıcılığı ilə bağlı keçirilə biləcək tədbirlərdən söhbət açılır.

### *Həyat və yaradıcılığı*

Salman Məmmədəmin oğlu Əsgərov 20 may 1884-cü ildə Nuxanın (indiki Azərbaycanın Şəki şəhəri) Gəncəli məhəlləsində anadan olub. Salmanın atası Məmmədəmin tacir idi və ailəsi uzun müddət Orta Asiyada yaşamışdı. Salmanın babası Ağaələsgər çox varlı idi. O vəfat etdikdən bir müddət sonra həyat yoldaşı da dünyasını dəyişir, evi də yanır. Kimsəsiz qalmış oğlu Məmmədəmin var-dövlətlərinə yiyələnmiş əmisinə sığınır, zərgər yanında işləyir. O, Məşhədə ziyarətə gedir. Qayıdanda yolunu Aşqabaddan salır, çünki eşitmişdi ki, burada torpaqlar çox ucuz qiymətə satılır. Məşhədi Məmmədəmin Şəkidən gətirdiyi qızılla Aşqabaddan xeyli torpaq alır, özünə yurd salır. O, az vaxtda karvansara və dəzgah yiyəsi olur. Şəkidə yaşayan ailəsini Aşqabadda

tiktirdiyi yeni mülkünə gətirməyə hazırlaşan Məmmədəmin, 1887-ci ildə 32 yaşında ağciyər iltihabından vəfat edir.
1900-cü ildə Məmmədəminin həyat yoldaşı Məşhədi Zəhra xanım (1865-1938) özünün kiçik qardaşı Kərbəlayi Əsgəri Bakıdan götürüb Aşqabada gedir. Oğlanları Salmanla Əsgəri də Aşqabada gətirir. Sonra böyük qardaşı Kərbəlayi Mövsümü də yanına aparır. Mirzə Fətəli Axundzadə ilə qohumluq əlaqələri olan Zəhra xanım, düşüncəli və bacarıqlı qadın idi. O, iri bir sandıq alır, oğlanları böyüyənədək sandığı qızılla doldurur (Həmin qızılları bir qədər sonra Salman Mümtaz Azərbaycan əlyazma kitablarını almağa və xeyriyyə işlərinə xərclədi)

Uşaqlıq illərindən Salman Mümtaz elmə böyük maraq göstərir; fars və ərəb dillərini mükəmməl bilirdi. O, Aşqabadda təhsil almış, fars və ərəb dillərini də orada öyrənmişdi. Burada Mirzə Əsədulla adlı müəllimdən fars və ərəbcə yanaşı urdu dili də mənimsəmişdi. 1893-cü ildə 9 yaşlı Salmanın Aşqabadda Mirzə Ələkbər Sabir ilə görüşü olur. Bu görüşlə Mümtazda ədəbiyyata həvəs yaranır. 3 ay molla yanında dərs keçmiş Salman 22 yaşınadək gecə-gündüz öz üzərində ciddi çalışır, fars, ərəb, rus, urdu dillərinə yiyələnir, hafizəsi ilə Şərq ədəbiyyatının incilərini mənimsəyir. Salmanın qüvvətli zəkası olduğu üçün, o, bir çox şeirləri əzbərləmişdi. İslam xalqlarının dillərini bilməsi onda Şərq ədəbiyyatına qarşı maraq yaratmışdı.
Dayısı Kərbəlayi Mövsümün dəzgahında ticarətlə məşğul olan Salman, türk (Azərbaycan) əlyazmalarını toplamağa başlayır.

Qeydlər

"Mümtaz" sözü Ərəbcədən tərcümədə (ərəb. ممتاز) "seçilmiş", "digərlərindən fərqlənən" mənasını verir.

Görkəmli publisist Salman Mümtazın anadan olmasının 140-illik yubileyi ilə əlaqədar olaraq, bir sıra tədbirlər: kitab müzakirəsi, oxucu konfransı, oxucularla söhbət, icmal, dəyirmi masa, ədəbi-bədii gecə keçirilə bilər. Dəyərli qələm sahibi Salman Mümtazı oxuculara sevdirmək, yaradıcılığını gənc nəslə və şagirdlərə tanıtmaq məqsədilə kitabxanada kitab sərgisi təşkil olunmalıdır. Sərgiyə müxtəlif başlıqlarlar verilə bilər: "Tarixə iz qoyanlar", "Salman Mümtaz yaradıcılığı", "Fiziki və mənəvi həyatını millətinin azadlığı uğrunda qurban etmiş mücahid", "Yeni türk hekayəçisi" "Salman Mümtaz fenomeni", "Nəhəng fikir və əməl adamlarımızdan biri - Salman Mümtaz", "İnsanlığın zənginliklərinə sahib olan ziyalı", "İstedadlı ədəbiyyatşünas, yorulmaz tədqiqatçı", "Ədəbiyyat, folklor, millət fədaisi", "Azərbaycan klassik ədəbiyyatının cəfakeş toplayıcısı" və s.
Salman Mümtazın 140-illik yubileyi ilə əlaqədar kitabxanada keçirilə biləcək tədbirlərdən biri də konfransdır. *"İnsanlığın zənginliklərinə sahib olan şəxsiyyət"* başlıqlı **konfransda** alimlər, tarixçilər, tədqiqatçılar, folklorşünaslar, müəllimlər, ali məktəb tələbələri və s. qonaqlar iştirak edə bilərlər. Konfransda Salman Mümtazın həyat və yaradıcılığı, keçdiyi şərəfli ömür yolu haqqında qonaqlara geniş məlumat verilir. Konfransın ikinci hissəsində isə ali məktəb tələbələri məruzəçi qismində çıxış edirlər. Onların məruzələri ayrı adda məlumat xarakteri daşıyır.

*I məruzəçi:* ***"Molla Nəsrəddin" jurnalı ilə əməkdaşlıq***

Türk ədəbi tənqidçisi Yavuz Akpınarın sözlərinə görə 1908-1909-cu illərdə Tiflisdə "Molla Nəsrəddin jurnalı" çıxdıqdan sonra Salman Mümtaz da bu satirik jurnalın yazıçıları arasında yer aldı. Eyni zamanda klassik tərzdə şeirlər də yazırdı. Aşqabadda dostları ilə birlikdə ədəbi məclis

qurmuşdu. 1908-1909-cu illərdə Mümtaz sonradan başda "Molla Nəsrəddin jurnalı" olmaqla, həmçinin Azərbaycan mətbuatının digər orqanlarında dərc edilmiş satirik şeirləri və məqalələri ilə oxucuların diqqətini çəkdi. Yavuz Akpınarın yazdığına görə, "Mümtaz əsərlərində oxucuya öz ölkəsinə və millətinə sevgisini bildirir, ictimai həyatdakı çatışmazlıqları nümayiş və ifşa edirdi."

Azərbaycan ədəbiyyatşünası və tarixçisi Ədalət Tahirzadənin ifadələrinə görə, 1906-cı il onun düşüncələrində dönüş yaradır: Aşqabada gələn Mümtaz "Molla Nəsrəddin" məcmuəsi ilə yazışır, ona çoxlu xəbərlər, bəzən də şeirlər göndərir. Əbdürrəhim bəy Haqverdiyev və Qurbanəli Şərifzadə ilə birgə yazdığı, 1908-ci ildə "Molla Nəsrəddin" jurnalında çıxan "Mozalan bəyin səyahətnaməsi" onun yaradıcılıq uğurlarından biri sayılır. 1910-cu ildə Mirzə Ələkbər Sabirlə iki həftəlik ikinci görüşü onu ədəbiyyata daha da bağlayır: Sabirin Mümtazı həvəsləndirilməsindən sonra "Molla Nəsrəddin" jurnalında onun "Xortdan bəy" imzası görünməyə başlayır.

1913-cü ildə Tiflisdə ilk kitabı "Seyid Əhməd Hatif İsfahaninin tərcibəndi və tərcümeyi-halı" əsərini Mirzə Cəlil Məmmədquluzadəin "Qeyrət" mətbəəsində nəşr etdirir. 3 ay Tiflisdə qalan Salman Mumtaz ədəbiyyat, tarix və incəsənəti dərindən bilən Abbas Səhhət ilə tanış olur, 2 il öncə dünyasını dəyişmiş Mirzə Ələkbər Sabirin "Hophopnamə" kitabını nəşr etdirməsində ona önəmli yardım göstərir. Tiflisdə Mirzə Cəlil ilə dostlaşan Mümtaz "Molla Nəsrəddin" jurnalını hərtərəfli maliyyələşdirir. 1913-cü ildə "İqbal" qəzeti Qafqazda dövrünün 11 müasir şairindən biri olan Salman Mümtaz haqqında yazırdı: "Salman Əsgərov və ya ləqəbi ilə Mümtaz "Molla Nəsrəddin" jurnalında özünün 12 pürmənа şeiri ilə millətin nöqsanlarını göstərir, nicatına yol göstərməkdə

qələmi ilə xidmət edir. "Salman Mümtaz 1916-cı ildə Aşqabadda Cəlil Məmmədquluzadənin "Ölülər" əsərinin səhnəyə qoyulması üçün çox çalışsa da, yerli hakimiyyət orqanları buna icazə vermədi.

Salman Mümtaz 1918-ci ilə qədər Aşqabadda "Molla Nəsrəddin" jurnalında şeirlər və felyetonları ilə dini fanatizm və xürafata qarşı çıxış etmişdir. Mümtaz "Molla Nəsrəddin" jurnalının Orta Asiya və digər bölgələrdə yayılmasında da öz köməyini göstərirdi.

*II məruzəçi:* ***Azərbaycana qayıdışı***

Salman Mümtaz 1918-ci ildə ailəsi ilə birlikdə Bakıya qayıdaraq "Azərbaycan" qəzetində jurnalist kimi fəaliyyətə başladı. Artıq bu dövrdə o, Azərbaycan klassiklərinin yaradıcılığı ilə bağlı sənədlərlə maraqlanırdı. Bu dövrdə Azərbaycan xalqının Çar Rusiyasına qarşı milli azadlıq mübarizəsi nəticəsində, Birinci Dünya müharibəsi dövründə Şimali Azərbaycanda yaranmış müstəqil dövlət və Müsəlman Şərqində ilk parlament respublikası olan Azərbaycan Xalq Cümhuriyyəti yarandı.

Salman Mümtaz Bakıya köçdükdə bir müddət Krasnokrestovski (indiki — Şeyx Şamil küçəsi) küçəsindəki 3-cü binada, həyat yoldaşının qardaşı Ağarzanın mülkündə yaşayırdı. Baryatinski (əvvəllər Fioletov, indi — Əbdülkərim Əlizadə küçəsi) küçəsindəki 6/23-cü binada şəxsi dükan açdı. 1919-cu ildən "Yaşıl qələm" cəmiyyətinin üzvü olan Salman Mümtaz, cəmiyyətin uğurla fəaliyyət göstərməsinə xeyli pul xərclədi.

Azərbaycan müstəqilliyinin milli xəzinə olduğunu anlayan Salman Mümtaz, Osmanlı ordusunun generalı, Qafqaz İslam Ordusunun komandanı Nuru paşanı və Osmanlı İmperiyasının hərbi naziri, siyasi xadim Ənvər paşanı yüksək qiymətləndirirdi. 1918-ci ildə Salman Mümtaz Nuru paşa ilə

görüşərək ona həsr etdiyi "Öyün millət!" qəzəlini söyləyib. Mümtaz Ənvər paşaya "Ənvəriyyə" müxəmməsini həsr edib. Azərbaycanlı aktyor və rejissor Rza Təhmasib Təbriz mehmanxasında Hüseyn Cavidin ədəbi yığıncaqlarını xatırladaraq qeyd etmişdi:
"Salman Mümtaz fars və azərbaycan dillərində əzbərdən və xoş bir ahənglə şeirlər oxuyardı. Onun çox yaxşı yaddaşı var idi."
Salman Mümtaz tədqiqata daha çox üstünlük verirdi. Əsgərov bütün gücünü Azərbaycan ədəbiyyatının toplanmasına, tədqiqinə, müəyyənləşdirilməsinə, nəşrinə və yayılmasına yönəltmişdi.
1924-cü ildə Salman Əsgərzadə "Azərneft təchizat" idarəsinin Nuxa, Qutqaşen, Zaqatala, Qax və Laqodexidə anbarları olan rayon agentliyinin müvəkkili idi. O, həmçinin Xalq Maarif Komissarlığında da çalışmışdır.
*I məruzəçi:* ***Elmi fəaliyyəti***
Azərbaycanda Sovet hakimiyyətinin qurulmasından sonra klassik ədəbi irsin toplanması, nəşri və tədqiqi sahəsində fəaliyyət göstərmiş, Azərbaycan şair və aşıqlarının əsərlərinin bir sıra naməlum əlyazma nümunələrini aşkara çıxarmışdır. 1920-ci ildən 1925-ci ilə qədər Mümtaz, Azərbaycan ədəbiyyat və incəsənət nümayəndələrindən təxminən 200 ədəd kitab, məqalə və müxtəlif yazıçıların əlyazmalarını toplamağı bacardı. "Kommunist" qəzetində "Unudulmuş yarpaqlar" başlığı altında Azərbaycan ədəbiyyatına dair məqalələr dərc etdi. Mümtaz 1920-ci ildə Salman Mümtaz Azərbaycan ədəbiyyatın bərpası üzrə komissiyanın təşkilatçısı və sədri idi. Həmçinin Mümtaz, Azərbaycan ədəbiyyatının tarixinə dair 15, xalq ədəbiyyatına dair isə 2 əsərin, Məhəmməd Füzuli əsərlərinin üç cildinin, "250 şair" toplusunun, "Xətai" divanının, "Səid Əhməd

Hatif", "Əli Bakuvi", "Şəki savları" və digər əsərlərin müəllifidir.
1925-1926-cı illərdə Salman Mümtaz "Kommunist" qəzeti nəşriyyatında Azərbaycan ədəbiyyatı seriyasından 24 şairin – İmadəddin Nəsimi, Qövsi Təbrizi, Nişat Şirvani, Ağa Məsih Şirvani, Molla Pənah Vaqif, Qasım bəy Zakir, Mirzə Şəfi Vazeh və başqalarının kitablarını nəşr etdirmişdir. Bunların bir çoxu həmin şairlərin əsərlərinin ilk toplu nəşri idi.
Aşıq poeziyası nümunələrindən ibarət "El şairləri" kitabını (1927-1928-ci illərdə 1-2 cild; 1935-ci ildə təkrar çapı) və Sarı Aşığın bayatılarını (1927, 1934) nəşr etdirmişdir.

Salman Mümtaz 1926-cı ildə Bakıda keçirilən Birinci Türkoloji qurultayda iştirak etdi. Mümtaz burada iştirakçılara "Nəsimi" adlı yeni kitabını tanıdaraq hədiyyə etdi. Salman Əsgərzadə burada fəaliyyətinə yaxından bələd olduğu akademik, professor Mehmed Fuad Köprülüzadə və "Füyuzat" jurnalının yaradıcısı, professor Əli bəy Hüseynzadə ilə görüşdü. (1950-ci ildə Mehmed Fuad Köprülüzadə yenidən Türkiyədən SSRİ-yə Türkiyə Xarici İşlər Naziri kimi gəldi. O, burada yenidən Salman Mümtazla görüşmək və rəsmi şəkildə onun barəsində məlumat almaq üçün müraciət etdi. Lakin onun bu müraciəti cavabsız qaldı. Çünki Salman Mümtaz repressiya qurbanı olmuşdu və artıq həyatda deyil idi). Qurultayda iştirak edənlər arasında tatar ədəbiyyatçı Əziz Qubaydullində var idi. Əziz Qubaydullin qurultayda çıxış edərək Salman Mümtazın azərbaycanlı şairlərin əsərlərini "Kommunist" qəzetində nəşr etdiyini bildirdi və hər bir nəşrdən əvvəl Salman Mümtaz tərəfindən şairlər haqqında yazılan bioqrafiya məlumatlarını "ən qiymətli bioqrafiya məlumatı" olduğunu bildirərək zəhmətini yüksək qiymətləndirdi. Həmçinin 1926-cı ildə Mümtazın şəxs kitabxasına ("Kitabxaneyyi-Mümtaziyyə") nəzər salan

akademiklər – Vasili Bartold və Sergey Oldenburq kitabxananın elmi quruluşuna, çoxsaylı tərtibatına, buradakı əlyazmaların zənginliyinə heyran qalmışdılar.

Salman Mümtazın fəaliyyəti və yaradıcılıq sahəsi 1925-1932-ci illərdə Azərbaycan SSR rəhbərliyinin ədəbiyyat və incəsənət sahələri üzrə fərmanları ilə müəyyən dərəcədə ilhamlanmışdır. Bu dövrdə Mümtaz müxtəlif əsərlər yazmış və yeni kitablar nəşr etdirmişdir. Mümtaz, yaradıcılığının bu dövründə yazdığı "Sarı Aşıq" və "El şairləri" adlı əsərləri ilə bağlı professor, elmi tədqiqatçı və filologiya elmləri üzrə fəlsəfə doktoru A. M. Nəbiyev "Xalqımızın deyimləri və duyğuları" adlı kitabında bəhs etmişdir.

Salman Mümtaz 1929-cu ildən 1932-ci ilə qədər Azərbaycan Dövlət Elmi Tədqiqat İnstitutunun kapitalizmə qədər olan dövr Azərbaycan ədəbiyyatı bölməsinin müdiri vəzifəsində çalışdı. 1932-ci ildən Azərbaycan Dövlət Muzeyində elmi işçi idi. Salman Mümtaz eyni zamanda 1933-cü ildən 1936-cı ilədək "Azərnəşr" nəşriyyatının klassik irs şöbəsinə başçılıq edirdi. Mümtaz 1933-cü ilin fevral ayından SSRİ EA Azərbaycan Filialı ədəbi irs bölməsinə elmi işçi vəzifəsində çalışmışdır. 1937-ci ilin aprel ayından isə Azərbaycan filialının ədəbiyyat şöbəsinə rəhbərlik etmişdir. Həmçinin Mümtaz SSRİ Elmlər Akademiyasının Azərbaycan filialının Dil və ədəbiyyat İnstitutunun ədəbiyyat şöbəsinin birinci kateqoriyalı əməkdaşı olmuşdur.

Salman Mümtaz 1934-cü ildə Moskvada SSRİ yazıçılarının birinci qurultayında iştirak etmişdir. Qurultayda iştirak edən Məmməd Kazım Ələkbərli çıxış edərək məruzəsində şair Mirzə Şəfi Vazehin mirasının və onun Azərbaycan ədəbiyyatında misilsiz xidmətlərinin öyrənilməsində Salman Mümtazın böyük rolu olduğunu qeyd etdi. Salman Mümtaz Maksim Qorki ilə də yaxın dost olub.

SSRİ Yazıçılarının birinci qurultayında o, böyük yazıçı ilə görüşmüşdü. Maksim Qorki Azərbaycan yazıçıları ilə bir neçə fotoşəkil də çəkdirmişdi. Fotoşəkillərdə Salman Mümtaz Maksim Qorkinin yanında əyləşmişdir. Alınan məlumatlara görə, Qorki Salman Mümtaz üçün Moskvada ev almışdır. Həmin ildə Firdovsinin 1000 illiyində iştirak etmək üçün Azərbaycandan Moskvaya göndərilən heyətin daxilində Salman Mümtazın əvəzsiz xidmətləri olmuşdur.

Salman Mümtazın ədəbi və tarixi mövzularda tədqiqatları mövcud idi. O həmçinin bu tədqiqatlarla maraqlanırdı və toponimikanı çox sevirdi. Mümtaz çoxlu sayda səyahətlər etmişdir və səyahətlər zamanı şəhərlərin və kəndlərin coğrafi adlarını mənimsəmişdir. Mümtaz bel çantası və özünün çarığı ilə sadə səyahət edirdi.

Salman Mümtaz həmçinin Azərbaycan ədəbiyyatı klassikləri əsərlərinin elmi və tənqidi əsərlərinin tərtibatı üzərində işləmişdir. Mümtaz İmadəddin Nəsimi, Şah İsmayıl Xətai, Həbibi, Məhəmməd Füzuli, Molla Vəli Vidadi, Molla Pənah Vaqif, İsmayıl bəy Qutqaşınlının və başqalarının bioqrafiyasını və əsərlərini, Mirzə Ələkbər Sabirin və Abbas Səhhətin xatirələrini mənimsəmişdir. Salman Mümtaz məşhur şair və tənqidçi Mirzə Ələkbər Sabir ilə yaxın dost idi. Salman Mümtazın ayrıca elmi sahəsi və maraq sahəsi Mirzə Ələkbərin Sabirin həyatı haqqında yazmaq və əsərlərini oxumaq idi.

Salman Mümtaz "Molla Nəsrəddin" jurnalı, "Azərbaycan" və "Kommunist" qəzetlərinə əlavə olaraq "Zənbur", "Hacı Leylək", "Tutu", "Şeypur", "Füqəra Füyuzatı", "Qurtuluş", "Qardaş köməyi", "Maarif və mədəniyyət", "Qızıl Şərq", "Şərq qadını" jurnalları ilə, həmçinin "Səda", "Günəş", "İnqilab", "Açıq söz", "Kommunist", "Tərəqqi", "Yeni iqbal", "İqbal", "Ədəbiyyat qəzetəsi" qəzetləri ilə əməkdaşlıq

etmişdir. Bu qəzet və jurnallarda Salman Mümtaz "Aşqabadlı", "Vasvası", "Eşşəkarısı", "Mömin çinovnik", "Mümtaz" (ərəb dilindən tərcümədə bu söz "seçilmiş", "başqalarından seçilən" mənasını verir), "Sağsağan", "Sərçə", "Sərçəqulu", "S.Əsgərov", "Türkməndost", "Xortdanqulu bəy", "Xortdanbəyzadə", "Çalağan" və başqa imzalar altında satirik və lirik şeirlər, məqalə və felyetonlar, nəsr əsərləri yazmışdır. Mümtazın bu əsərləri indiyə qədər toplanmayıb. Salman Mümtaz doğma azərbaycan dili ilə yanaşı, ərəb, fars, türk, urdu və rus dillərini mənimsəmişdir.

Hamıdan öncə Mirzə Ələkbər Sabir və Mirzə Cəlil Məmmədquluzadə kimi şəxsiyyətlərdən mənəvi güc almış Salman Mümtazın bədii yaradıcılığı Əbdürrəhim bəy Haqverdiyev, Hüseyn Cavid, Hüseyn Sadiq (Seyid Hüseyn), Abdulla Şaiq, Cəfər Cabbarlı, Mikayıl Müşfiq kimi dostları ilə ünsiyyətdə ərsəyə gəlmişdi. Lev Tolstoy, Maksim Qorki, Rabindranat Taqor, Sədrəddin Ayni və başqa söz ustaları ilə yaxınlığı da onun dünyagörüşündə müəyyən izlər buraxıb.

## Sibirə qədər uzanan yol

### Repressiya edilməsi və ölümü

1937-ci ilin mart ayında ən yüksək nöqtəsinə çatan Stalin repressiyası Salman Mümtazdan da yan keçmədi. Buna səbəb kimi Hüseyn Cavid, Seyid Hüseyn və Atababa Musaxanlı ilə yanaşı "Bakinski raboçi" qəzetində buraxdıqları "ideoloji səhvləri" göstərildi. Eyni ilin 10 iyun tarixində Salman Mümtaz Azərbaycan Yazıçılar Birliyindən azad edildi. 1937-ci il 10 – 12 iyun tarixlərinddə Salman Mümtaz "xalq düşməni" olaraq adlandırıldı. İyun ayının 19-da Salman Mümtazı burjua milliyətçisi və pantürkist mövqeli şəxs kimi tutduğu vəzifələrdən azad etdilər. Azərbaycan Elmlər Akademiyasının Mərkəzi Arxivində saxlanılan Salman

Mümtazın şəxsi həyat məlumatında AzFAN Dil və Ədəbiyyat İnstitutunun rəhbəri A. Əhmədov tərəfindən 19 iyun 1937-ci il tarixli, №-26 prikaz saxlanılır. Prikazda qeyd edilir:
"Əsgərov Salman Mümtaz ədəbiyyat şöbəsinin kiçik tədqiqatçısı vəzifəsindən azad olunmuşdur. 20 iyun 1937-ci il tarixindən etibarən isə burjua milliyətçisi olmağa məruz qalmışdır."
Buna baxmayaraq, Mümtaz nadir əlyazmaları və kitabları toplamağa, eyni zamanda tədqiq etməyə davam etdi. Salman Mümtaz uzun illər boyu əldə etdiyi qiymətli əlyazmaları "Kitabxaneyi-Mümtaziyyə" şəxsi kitabxasına toplamışdır. Vaxtının əsas hissəsini də bu kitabxanada keçirtmişdir.
Salman Mümtaz 8 oktyabr 1937-ci il tarixində, axşam saat 11-də Bakıdakı evində – Buynakski küçəsi № 25 ünvanında (indiki – Şeyx Şamil küçəsi) siyasi dustaq kimi həbs olundu. Bir həftə sonra Mümtaz Azərbaycan SSR Cinayət Məcəlləsinin 69, 70, 72, 73 maddələri ilə təqsirli bilinərək ittiham olundu. Salman Mümtaza Sinman, Qalstyan, Avanesyan və Borşşev tərəfindən üç aylıq dəhşətli işgəncələr verildi. 1937-ci ilin oktyabr ayının 10-da baş tutan ilk istintaqda Dövlət Təhlükəsizliyi İdarəsinin leytenantı Qalstyan Mümtaza məlumat vermişdir: "Bildirmək istəyirəm ki, sizin həbs olunma səbəblərinizdə qeyd edilir ki, Sovet İttifaqı Kommunist Partiyasına və Sovet hökumətinə qarşı əks-inqilabçı millətçi mövqedə dayanmısınız və əks-inqilabçı millətçi təşkilatının üzvüsünüz. Siz – Əsgərov Salman Mümtaz Məmmədəmin oğlu əksinqilabçı millətçi təşkilatın üzvü olduğunuzu və əks-inqilabi millətçi mövqedə dayandığınızı etiraf edirsinizmi?" Mümtaz cavabında demişdir: "Xeyr. Mən əks-inqilabçı millətçi təşkilatın üzvü deyiləm və əks-inqilabi millətçi mövqedə dayanmıram!"

Qalstyan bu cavabdan sonra Mümtaza mövzu ilə əlaqədar olaraq xəbərdarlıq etmişdir: "Siz əks-inqilabçı millətçi təşkilatın üzvü olmağınız və əks-inqilabi millətçi mövqedə dayanmağınız kimi qarşıdurmalara məruz qalacaqsınız."
Salman Mümtaz bundan əvvəl AzFAN-ın direktor müavini Ruhulla Axundov tərəfindən polis nəzarətinə alınmış, daha sonra 4 aprel 1937-ci ildə istintaqa cəlb olunmuş və burada respublikada və Azərbaycan SSR Elmlər Akademiyasında əks-inqilabi burjua millətçi təşkilatının "üzvü olduğunu" etiraf etmişdir. Həmçinin, R. Axundov Mümtaz, Bəkir Çobanzadə, Yusif Vəzirov, Seyid Hüseyn, Üzeyir Hacıbəyov, Sanılı, Səməd Vurğun, Mikayıl Müşfiq, Əhməd Cavad, Hüseyn Cavid, Əmin Abid, Müznib, Sultan Məcid, Vəlixanov, Səfikürdski, Aşurbəyov, Musaxanov kimi şəxsləri "təşkilata aldığını" etiraf etmişdir. Ruhulla Axundov, Ələkbər Məmmədkazımov, Çobanzadə və Qubaydullinlə yaranan qarşıdurmalar zamanı (10 oktyabr 1937) Salman Mümtaz ona aid olan, əleyhinə deyilən ifadələri qətiyyətlə təkzib etmişdir. Salman Mümtaz 1925-ci və ya 1926-cı illərdə heç bir təşkilata qəbul edilmədiyini və əks-inqilabi millətçi mövqedə dayanmadığını bildirmişdir.
Bu ittihamlarla yanaşı Salman Mümtaz "Azərbaycanın milliyyətçilik dastanı" kimi göstərilən "Koroğlu" dastanı üzərində işlədiyi üçün ittihama cəlb olundu. Bu ittihamın əsas səbəbi kimi, Mümtazın bu əsəri seçməklə xalqı SSRİ-yə qarşı milli müstəqillik uğrunda mübarizəyə ruhlandırması göstərilmişdi. Həmçinin Mümtaz, Mahmud Kaşğarinin divanının nəşrə hazırlanmasında iştirakına görə də ittiham edildi.

7 dekabr 1937-ci il tarixində Qalstyan Salman Mümtazın işi üzrə istintaqı bitirdi. 1937-ci il dekabr ayının 8-də kapitan Avanesyan Mümtazın ittiham aktını təqdim etdi. Bu

ittihamda qeyd olunmuşdu: "Salman Məmmədəmin oğlu Əsgərov Azərbaycan əks-inqılabi burjua təşkilatının üzvüdür. O, Azərbaycan Sovet Respublikasını SSRİ-dən ayırmağa çalışan və 1936-cı ildə Elmlər Akademiyasında əsası qoyulan əks-inqilabçı Pantürkist Mərkəzinin fəal üzvüdür. O, Akademiyada fəal əks-inqilabi işlər aparmışdır." Salman Mümtaz isə ona qarşı sürülən bu ittihamların hamsının əsassız və gerçəyi yansıtmadığını bildirdi. 8 yanvar 1938-ci ildə Salman Mümtazın № 12493/278 işi üzrə SSRİ Ali Məhkəməsi Hərbi Kollegiyasının iclasa hazırlıq səbəbi ilə protokolları tərtib edildi. 1938-ci il yanvar ayının 9-da SSRİ Ali Məhkəməsi Hərbi Kollegiyasının qapalı məhkəmə iclası keçirildi. Salman Mümtaz ittiham olunsa da heç bir günahının olmadığını bildirdi. Məhkəmənin başlanmasından 30 dəqiqə sonra Hərbi Kollegiya Salman Mümtazın işi barəsində qərarını açıqladı. Hökmə görə, Salman Məmmədəmin oğlu Əsgərov 10 il azadlıqdan məhrum edilir, 5 il isə bütün siyasi hüquqlarından məhrum edilir və onun bütün əmlakı müsadirə edilir.

Mümtaz azadlıqdan məhrum edildikdən sonra onun topladığı bütün əlyazmalar yandırıldı. Evini axtarış zamanı və Salman Mümtazın əmlakı müsadirə edilərkən onun mənzilindən orta əsrlərin müxtəlif elm sahələrinə aid olan və şərq dillərində yazılan 238 əlyazma ələ keçirildi. Mümtazın nəşr etdirə bilmədiyi bu özünəməxsus elmi əsərlərinin bir hissəsi başqaları tərəfindən ələ keçirildi və bu əsərlər artıq başqalarının ad-soyadları altında çap etdirildi. Salman Mümtazın mənzilindən ələ keçirilən 238 əlyazmaya görə onun qızı Şəhla xanıma 6010 rubl 60 qəpik ödəniş edildi. Bəzi müəlliflər, Mümtaz həbs edildikdən sonra onun topladığı 270 əlyazmanın məhv edildiyini qeyd edirlər.

Bəzi mənbələrdə Salman Mümtazın xəstəliyə tutulduğunu və bu xəstəlik səbəbi ilə vəfat etdiyini qeyd edirlər. Lakin, bəzi müəlliflər isə Salman Mümtazın 21 dekabr 1941-ci il tarixində Sol-İletsk həbsxanasında vəfat etdiyini göstərirlər. Mümtazın ailə üzvlərinə təqdim edilən ölümü ilə əlaqədar arayışda Salman Əsgərovun Oryol şəhərində beyin qanaxması səbəbi ilə vəfat etdiyi göstərilmişdi.

Mümtazın ölümü isə bu cür olmuşdu. Salman Mümtaz 24 fevral 1938-ci il tarixində Sol-İletsk həbsxanasına, daha sonra isə Oryol şəhərinə cəza çəkmək üçün göndərilmişdi. O dövrdə repressiya qurbanı olan tanınmış elm xadimləri ilə birlikdə Mümtaz Oryol şəhərinə sürgün edildi. 1941-ci ilin iyun ayında Böyük Vətən Müharibəsi başlandı. Daha sonra Lavrenti Beriya və İosif Stalinin ortaq razılığı əsasında şəhəri almanlar ələ keçirməzdən öncə, şəhərdəki bütün siyasi məhbusların güllənməsi qərara alındı. Dustaqların hamısına özləri üçün məzarlar qazdırıldı və onlar güllələndikdən sonra bu məzarlarda dəfn edildilər. Rusdilli mənbələrdə bu güllələnmə tarixi 6 sentyabr 1941-ci il kimi göstərilir.

Salman Mümtaza ancaq İosif Stalinin ölümündən və Nikita Xruşşovun hakimiyyətə gəlişindən sonra bəraət verilə bildi. 16 noyabr 1956-cı il tarixində SSRİ Ali Məhkəməsi tərəfindən onun haqqında yazılan ittihamnamə ləğv edildi. SSRİ Ali Məhkəməsinin qərarına əsasən 17 noyabr 1956-cı il tarixində Salman Mümtaza bəraət verildi. Mümtazın ölüm xəbəri ilə bağlı məlumatı isə onun ailəsi 4 mart 1957-ci il tarixində aldı.

*IV məruzəçi:* ***Ailəsi***

Salman Mümtaz Şəkidən olan həmyerlisi Zeynəb adlı xanımla ailə həyatı qurmuşdu. Bu evlilikdən Mümtazın İsgəndər adlı oğlu, Şəhla adlı qızı dünyaya gəlmişdi. Mümtazın oğlu İsgəndər Moskvada Rəssamlıq

Akademiyasında, qızı Şəhla isə Bakı Dövlət Universitetinin kimya fakültəsində təhsil alırdı. Salman Mümtaz repressiya olunduğu vaxt İsgəndər akademiyanın 5-ci kursundan, Şəhla xanım isə universitetin 2-ci kursundan qovulmuşdu.
Şəhla xanımın oğlu, Salman Mümtazın nəvəsi Urxun Qalabəyli şərqşünaslıq vəzifəsinə yiyələndi. Qalabəyli Salman Mümtaz irsinin tanıdılmasında xeyli zəhmətlər çəkib. Mümtazın qızı Şəhla xanım da atasının haqları üçün bir çox işlər görmüş, Nikita Xruşşova da müraciət etmişdi. Bu müraciətlərin nəticəsi olaraq Salman Mümtazı tamamilə unutdurmaq mümkün olmamışdı.
V məruzəçi: ***Ədəbiyyat sahəsində araşdırmaları***
Tarixdə ilk dəfə olaraq Salman Mümtaz üzərində "Azərbaycan ədəbiyyatı" yazılmış 16 kitabı nəşr etdirmişdi. Bu 16 kitabdan birincisi 1925-ci ildə nəşr olunmuşdu və Ağa Məsih Şirvaninin yaradıcılığına həsr edilmişdi.Həsənoğlu, Qazi Bürhanəddin, Şah İsmayıl Xətai və Füzuli kimi ədibləri Salman Mümtaz "maarif göylərimizin beşguşəli ulduzu" adlandırırdı. Salman Mümtaz bu şairlərin öz ana dillərində yazdıqlarını yüksək qiymətləndirirdi, xüsusi məhəbbətlə bu şairlərin irsini araşdırırdı və bu ədiblərin bilinməyən bir çox əsərlərini aşkar etmişdi. Həmçinin Mümtaz Həbibi, Ənvəroğlu, İsmayıl bəy Qutqaşınlı və onlarla digər şairlər haqqında ədəbiyyat tarixində ilk dəfə söz açmışdı. O, eləcə də bir çox əsərlərin müəlliflərini ilk dəfə özü müəyyənləşdirmiş, eyni zamanda poeziya sahəsində bir çox müəllifin əsərlərini nəşrə hazırlamışdı. Salman Mümtazın yazdığı Qövsi Təbrizi (1925), Qasım bəy Zakir (1925, 1936), Molla Pənah Vaqif (1925, 1937), Nəsimi (1926), Mirzə Şəfi Vazeh (1926), Vidadi (1936) və s. adlı kitablar bu şairlər haqda ilk olaraq nəşr edilmiş külliyatlar idi.

Salman Mümtaz Ağa Məsih Şirvaninin yaradıcılığına həsr edilmiş kitabın ön sözündə qeyd etmişdi:
"Söz yox ki, qaraladığım sətirlərdə hörmətli oxucularımı qane etməyəcək bir çox məqamlar olacaqdır. Onlar bu qüsuru məndə yox, taleyimizdə görməlidirlər. Başqa millətlərdə hər hansı mövzularda olursa olsun bir kiçik əsər yazmaq istəyən müəlliflər üçün minlərcə məxəzlər, qəzetə və jurnallar tapılır. Lakin yaxşı-yaman qaraladığım bu cızma qaranı heç bir şeydən meydana qoyuram. Məxəzlərim mürgənələr, güvələr ağızlarından, siçanlar və kəsəyənlər boğazınlarından artıq qalmış yırtıq yarpaqlar, darmadağın cünglər və bəyazlardır. Qaynaq - mənbə - istoçniklərim isə uçuq-yıxıq qəbir daşları ilə səqfi çökmüş məscid tağları olmuşdur. İstifadə etdiyim qəzetə və jurnallar da qoca kişilərin və çox yaşamış qadınların hafizəsi və hövsələləridir. Məndən qabaq gələn mühərrirlərdən bu yolda bir hazırlıq olsa idi, şəksiz, mən bir bu qədər də çətinliyə uğramazdım. Tarixi-ədəbiyyatımızı meydana çıxarmaq imkan xaricində olduğu üçündür ki, bu günə kimi yaxşı-yaman bir əsər belə araya çıxmamışdır.

Salman Mümtaz 1923-cü ildə "Kommunist" qəzetinin "Unudulmuş yarpaqlar" başlığı altında məqalələri ilə ilk araşdırmalarını ortaya çıxarmışdır. Salman Mümtazın bu qəzetdə ilk ciddi uğuru onun "Azərbaycan şairlərindən biri Nəsimi" məqaləsi hesab olunur. İmadəddin Nəsiminin həyat və yaradıcılığı Azərbaycan ədəbiyyatşünaslığında ilk dəfə bu cür geniş şəkildə Salman Mümtaz tərəfindən tədqiq edilmişdi. 1926-cı ildə Salman Mümtaz Nəsiminin divanını ərəb qrafikalı azərbaycan dilində nəşr etdirmişdi.1920-ci illərdə Nəsimini tədqiq edən Salman Mümtaz Nəsiminin Şaxəndan adlı qardaşı olduğunu yazmışdı. Salman Mümtaz Şamaxıda yerləşən məşhur qəbiristanlığın Şaxəndanın adı ilə

bağlı olduğunu da göstərmişdi. Bunun əsasında da tədqiqatçı Nəsiminin Şamaxıda dünyaya gəldiyi qeyd etmişdi.
1921-ci ildə Salman Mumtaz tarixdə ilk dəfə olaraq Həbibinin həyat və yaradıcılığını tədqiq edərək onun haqqında məlumat vermişdi. Mümtaz Sam mirzənin özü tərəfindən Həbibi haqqında verilən fars dilindən məlumatları Azərbaycan dilinə köçürmüş və Həbibini istedadlı şair kimi tanıtmışdı. Salman Mümtaz şair haqqında çap etdirdiyi məqaləyə Həbibinin məşhur qəzəllərindən birini və Füzulinin onun bu şeirinə yazdığı təxmisi də daxil etmişdi. Salman Mümtaz ilk dəfə olaraq Həbibinin doğum tarixi haqqında məlumat vermişdi. "Füqəra füyuzatı" jurnalının 1921-ci ildə nəşr edilən üçüncü sayında Mümtaz Həbibinin 1470–1475-ci illərdə anadan olduğunu göstərmişdi. Salman Mümtaz yaradıcılığının bir qismində Həbib Səmədzadənin rolu olmuşdur.

1930-cu ildə ilk dəfə olaraq Mümtaz Şah İsmayıl Xətainin divanını nəşr etdi. Bunun üçün o, Əlyazmalar Fondunda saxlanan XVII əsrə aid divanın əlyazmasını istifadə etdi. Bu əlyazmadan ilk dəfə olaraq istifadə edən Salman Mümtaz idi. Xətai divanının bütün olaraq nəşri bu əlyazmaya əsaslanırdı. 1923-cü ildə Mümtaz Xətainin XVII əsrə aid olan "Dəhnamə" poemasının natamam siyahısını nəşr etdirdi. Hazırda bu siyahı Bakıda – Azərbaycan Milli Elmlər Akademiyası Əlyazmalar İnstitutund saxlanılır.
19 mart 1937-ci il tarixində Salman Mümtaz nəşrə hazırladığı Məhəmməd Füzuli əsərlərinin birinci cildi ilə əlaqədar olaraq komissiya yaradılması üçün ərizə təqdim etdi. Komissiya alimin çoxillik araşdırmalarının məhsulu olan bir çox əsərləri haqqında sənəd hazırladı. Bu sənəddən məlum olurdu ki, Salman Mümtazın hazırladığı Füzuli əsərlərinin Y. Bertels tərəfindən redaktə edilən, latın qrafikalı birinci cildi –

qəzəllər Həbib Səmədzadənin özündədir. Ərəb qrafikalı II cildin birinci hissəsi – "Leyli və Məcnun" redaktə üçün Leninqrada, Yevgeni Bertelsə göndərilib, ikinci hissəsi isə Bakıdadır. "Bəngü-Badə" – III cild isə qaralama formasındadır və Salman Mümtazın özündədir. Məhəmməd Füzulinin tərcümeyi-halına aid 260 səhifəlik monoqrafiyası Y.Bertels tərəfindən redaktə edilmiş, daha sonra isə Əlyazmalar İnstitutunun arxivinə verilmişdi. Bunlardan başqa, sənəddə göstərilir ki, Bəkir Çobanzadə, Tağı Şahbazi, Əli Nəzmi və qismən Həmid Araslı tərəfindən redaktə edilmiş Şah İsmayıl Xətaiyə aid olan, 1934-cü ildə Mümtaz tərəfindən nəşr edilən "Divan" Bakıda – Əlyazmalar İnstitutunun arxivində saxlanılır.

1933-cü ildə yeni yaradılan SSRİ Elmlər Akademiyası Azərbaycan Filialında kiçik elmi işçi işləyən Salmaz Mümtaz 483 Azərbaycan şairinin siyahısını tutmuş, onların həyat və yaradıcılıqlarının öyrənilməsinin vacibliyini vurğulamışdı. 104 şairin haqqında isə geniş araşdırma aparmağı nəzərdə tutmuşdu.

Salman Mümtaz ədəbiyyatı iki hissəyə bölürdü: "xas ədəbiyyatı" (klassik) və "xalq ədəbiyyatı" (söz sənəti, folklor). Salman Mümtaz Azərbaycan folklorunun toplanması və nəşri yolunda da yorulmadan işlər görmüşdür. 1920-ci illərdən başlayaraq artıq söz sənəti üzrə araşdırmalarını davam etdirən Salman Mümtaz bu sahədə Vəli Xuluflu, Hənəfi Zeynallı və Hümmət Əlizadə kimi şəxslərlə birlikdə çox faydalı işləri həyata keçirmişdi. Salman Mümtaz Azərbaycan bayatılarının toplanılması və araşdırılmasının ilk məhsulu olaraq "Aşıq Abdulla" (1927) və "Sarı Aşıq" (1935) kitablarını nəşr etdi. Bu əsərlərlə yanaşı, Azərbaycan xalq ədəbiyyatının sistemləşdirilməsi ilə əlaqədar olaraq ilk ciddi təcrübəsi – ikicildli "Xalq şairləri" (I

nəşr: 1927–1928; II nəşr: 1935–1936) əsəri hələ də elmi dəyərini itirməyən mötəbər mənbələrdəndir. Mümtaz bu əsərlərində Azərbaycan aşıq poeziyasından da nümunələr nəşr etdirmişdi.

Azərbaycan şair və yazıçılarının həyat və yaradıcılığını tədqiq etməklə yanaşı, Salman Mümtaz şərq poeziyasının digər klassiklərinin fəaliyyətlərini və həyatlarını araşdırmış, onlar haqqında da yazılarını nəşr etdirmişdi. Mümtazın 1920–1930-cu illərdə Firdovsi, Sədi, Rudəki, Nəvai, Məhtimqulu kimi ədiblərin həyat və yaradıcılığı haqqında çoxillik araşdırmalarının məhsulu olaraq yazdıqları ədəbiyyatşünaslar tərəfindən bu şairlər haqqında yeni söz kimi yüksək qiymətləndirilmişdir. Mümtaz Azərbaycan oxucusunu Əbu-Nəsr Fərabi, Əbu Əli ibn Sina, Cəlaləddin Rumi, Əmir Xosrov Dəhləvi, Əbdürrəhman Cami, İlya Çavçavadze, Rabindranat Taqor kimi ədiblərlə tanış etmişdi.

1925–1926-cı illərdə Salman Mümtaz şair Əlişir Nəvainin anadan olmasının 500 illiyi ilə əlaqədar olaraq bir sıra məqalələr dərc etmişdir, bunlar arasında "Əlişir Nəvainin Azərbaycan ədəbiyyatına təsiri" ("Kommunist" qəzeti, 4 mart 1926-cı il tarixli) və "Əmir Əlişir Nəvai" ("Yeni yol" qəzeti, 4 mart 1926-cı il tarixli) kimi məqalələrində Salman Mümtaz Əlişir Nəvai əsərlərinin bədii-poetik xüsusiyyətlərini, şeirlərinin dilini, sözlərin uyğun seçimi, artıq fikirlərdən azadlıq barəsində söhbət açmış, Nəvai poeziyasının Azərbaycan ədəbiyyatına təsirini və Azərbaycan ədəbiyyatının Nəvai yaradıcılığına təsirindən bəhs etmişdi. Firdovsinin anadan olmasının 1000 illik yubileyində "İnqilab və Mədəniyyət" jurnalı üçün Salman Mümtaz bir sıra məqalələr dərc etmişdi. Bu məqalələrin birində (№ 9–10, 1934-cü il tarixli) Salman Mümtaz Firdovsi irsinin öyrənilməsinin tarixindən söhbət açmış və şairin çox məşhur

"Şahnamə" əsərini təhlil etmişdi. Salman Mümtaz Ərzurumda doğulub, boya-başa çatmış türk şairi Əmrah haqqında tədqiqat apararaq yazmış və bir sıra şeirlərini nəşr etdirmişdi. Salman Mümtazın şair Əmrah haqqında bu araşdırmaları Türkiyənin xaricində ilk dəfə idi.

*VI məruzəçi:* ***Əlyazmalarının toplanması***

Salman Mümtaz klassik ədəbiyyat yaradıcılarının əsərlərinin kolleksiyaçısı idi. Bəzən qızıl verərək, bəzən minnətdarlıq zəmnində, bəzən isə zarafatla "kitabı pay olaraq verənin bir əli, geri götürənin iki əli kəsilməlidir" deyərək əlyazmaların toplanılması ilə məşğul olurdu. Salman Mümtaz kitabların və əlyazmaların toplanılması üçün bütün Azərbaycanı gəzmişdir, O, Bakıdan Qaxa, Dərbənddən Lənkərana, Qazaxdan Qubaya, Şəkidən Astaraya kimi bütün şəhər və rayonlara üz tutmuşdu. Salman Mümtaz hətta qədim və qiymətli kitablar üçün Dağıstan, Gürcüstan, Ermənistan, Rusiya, Orta Asiya kimi ölkələrdə və qitədə səfərlərdə olmuşdu. Nümunə olaraq – Mümtaz, İsmayıl bəy Qutqaşınlının "Rəşid bəy və Səadət xanım" adlı əsərini tapmaq məqsədi ilə Vladiqafqaza qədər getmişdi. O, bu səfərləri zamanı tez-tez natəmiz və şəraətsiz karvansaraylarda yaşayırdı, bəzən bu karvansaraylarda Mümtaz ac-susuz qalırdı. 1922-ci ildə tədqiqatçı bu səfərlərinin birində tifus xəstəliyinə tutuldu və təxminən altı ay yataqdan çıxa bilmədi. Salman Mümtaz çox böyük əziyyətlə topladığı əlyazmalardan misilsiz və geniş bir kitabxana yaratmışdı. "Kitabi-Dədə Qorqud" eposunun Vatikan və Drezden şəhərlərində olan nüsxələrindən sonra üçüncü nüsxəsi, Məhəmməd Füzulinin divanının dünyada ən qədim və ən mükəmməl əlyazması, Şah İsmayıl Xətainin "Dəhnamə" və "Nəsihətnamə" əsərlərinin elm üçün anlaşılan ilk nüsxələri, Azərbaycanın yüzlərlə məşhur, qüdrətli şairlərinin

əlyazmaları yalnız bu kitabxanada toplanmışdı. Zənginliyinə görə bu kitabxana təkcə Əbdülqəni Nuxəvi Xalisəqarızadə (1817–1879) və Məhəmmədəli Tərbiyət (1877–1940) kimi ədiblərin şəxsi kitabxanalarıyla müqayisə edilə bilərdi. Bu kitabxananın bir digər üstünlüyü onda idi ki, Salman Mümtazın çoxillik araşdırmaları ilə topladığı əlyazmaların əksəriyyəti türk dilində idi. Bundan əlavə, Salman Mümtaz çox çətin tarixi şəraitdə bu əlyazmaları toplamışdı, – bu dövrdə ərəb hərfləri ilə yazılmış sənədləri tapılan şəxslər ailəsi ilə birlikdə yaxud tək olaraq güllələnir, və ya Sibirə sürgün edilirdi. 1937-ci ildə baş verən repressiyalar SSRİ daxilindəki türk xalqlarına böyük zərbə vurdu. 1926-cı ildə keçirilən I Türkoloji Qurultayın vahid türk əlifbası və imlası barəsindəki qərarlarını, həmçinin yaranmaqda olan türk mənəvi birliyini aradan götürmək məqsədi ilə qurultayın, demək olar ki, bütün iştirakçıları "pantürkist", "millətçi", "əks-inqilabçı" elan edildi, repressiyaya məruz qalaraq qətlə yetirildi. "Türk" adı qadağan edildi (1936-cı ildən azərbaycanlılar milliyyətlərində rəsmi olaraq azərbaycanlı adlandırıldı). Türk xalqlarının öz tarixlərini öyrənmələrinə mane olmaq üçün tarix kitablarının hazırlanması və tarixin dəyişdirilməsi türklərə qarşı olan yadsoylu müəlliflərə həvalə edildi. Tarixin tam olaraq öyrənilməməsi üçün qədim türk əlyazmaları və ərəb əlifbasında qələmə alınmış bütün kitablar yandırıldı. Salman Mümtaz və onun kitabxanası da bu siyasətin qurbanı oldu. 1937-ci ilin oktyabr ayında Mümtaz NKVD əməkdaşları tərəfindən həbs edildikdə, onun iki böyük maşına yüklənmiş əlyazmalarının hamısı müsadirə edildi.

İllər sonra atasının mirasını geri qaytarmaq istəyən Salman Mümtazın qızı Şəhla Mümtazzadənin tələb və müraciətindən sonra o dövr Azərbaycan SSR Elmlər Akademiyasının

prezidenti Yusif Məmmədəliyev və Azərbaycan SSR Yazıçılar Birliyinin sədri Süleyman Rəhimovun təşəbbüsü ilə Salman Mümtazın kitabxanasının taleyi ilə bağlı məlumat aldılar. Daha sonra, 1957-ci ildə Petrosyan onlara aşağıdakı məzmundan ibarət olan arayışı təqdim etdi. Arayışda qeyd olunurdu: "Salman Mümtazın şəxsi mülkündən 9 oktyabr 1937-ci ildə həbs olunduğu zaman bunlar götürülüb, – 12 ədəd müxtəlif kitab, müxtəlif dramaturji materiallar, 3 çanta və bir çamadan əlyazma və bir bağlama xüsusi materiallar, lakin Salman Mümtaza aid olan bu materialların sonrakı taleyi barədə məlumatımız yoxdur." Daha sonra bu əlyazmaların sonrakı taleyi barədə, 9 oktyabr 1937-ci il tarixində Salman Mümtazın əlyazmalarının müsadirə edilməsində iştirak edən Aron Rıbakovdan soruşuldu, onun cavabı isə bu cür oldu: "Hamsı Quran idi." Azərbaycan SSR NKVD-nin yerləşdiyi "Dəniz qırağı" şöbəsinin arxivində verilən məlumatda isə bildirildi ki, Salman Mümtazın fəaliyyəti və kitabxanası ilə tanış olan yazıçı və alimlərin istiqamətinə əsasən Mümtazın 238 əsərinin siyahısı tutulacaq, əsərlər tapılacaq və qoruyub-saxlanılacaq. Azərbaycan SSR Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi İmam Mustafayev bu təşəbbüs üçün addım atdı, lakin o sonradan məlumat aldı ki, Salman Mümtazın bütün əlyazmaları NKVD-nin həyətində yandırılmışdır.

Salman Mümtazın kitabxanasında hal-hazırda çox cüzi materiallar qalmaqdadır, bu qalıqlar – vaxtilə onun Ermitaja, SSRİ EA Azərbaycan filialına bağışladığı kitablar, sənədlər, burada işlədiyi vaxt özünün qələmə aldığı, plan işi kimi təhvil verdiyi əlyazmalar və həbs gecəsi mətbəxdə gözdən yayınan, sonralar Respublika Əlyazmalar Fonduna (indiki – Azərbaycan Elmlər Akademiyasının Əlyazmalar İnstitutu) təqdim edilən bir səbət əsər və digər materiallardır.

*VII məruzəçi:* ***Xatirəsi***

17 sentyabr 1996-cı il tarixindən etibarən Azərbaycan Respublikasının Dövlət Ədəbiyyat və İncəsənət Arxivi Salman Mümtazın adını daşıyır. Şəki şəhərində Salman Mümtazın adını daşıyan küçə var. Türkiyə Respublikası Milli Kitabxanasında Salman Mümtaza həsr olunmuş bir guşə var. Bakı şəhərində, – Azərbaycan Yazıçılar Birliyinin binasının daxilindəki fasadında, repressiyyaya məruz qalmış iyirmi yeddi Azərbaycan yazıçılarının xatirəsinə bu üzvlərin adlarının həkk olunduğu xatirə lövhəsi inşa edilmişdir. Bu tikilidə Salman Mümtazın da adı həkk olunmuşdu. Lövhə Azərbaycan Xalq Rəssamı, memar Elcan Şamilov tərəfindən işlənilmişdir. Salman Mümtazın bir vaxtlar istifadə etdiyi qələm Azərbaycan Tarix Muzeyinə verilib və hal-hazırda orada sərgilənir. Şair Hüseyn Arif "Alim var" şeirinin bir bəndində Salman Mümtazdan bəhs etmişdir:

Alim tanıyıram, Qoca Qafqazın
Çeşmətək durulub dibindən çıxır.
Alim var, sol əli Salman Mümtazın,
Sağ əli Hümmətin cibindən çıxır.

Filologiya elmləri namizədi Rasim Tağıyev 1986-cı ildə Salman Mümtazın məqalələrindən ibarət maraqlı bir kitab nəşr etdirmişdir."Salman Mümtaz. Azərbaycan ədəbiyyatının mənşəyi." adlı bu kitabın redaktoru filologiya elmləri doktoru, professor Əkbər Ağayev, kitabın rəyçisi isə – akademik Məmməd Arif Dadaşzadə olmuşdur. 2002-ci ildə tarixçi-publisist Ədalət Tahirzadə Salman Mümtazın həyat və yaradıcılığını araşdıraraq, "Kür" nəşriyyatında "Salman

Mümtaz. Tərcümeyi-hal oçerki" adlı 16 səhifəlik kitab çap etdirmişdir. Müəllifin bu kitabı Mümtaz haqqında məlumat verə biləcək ən qiymətli əsərlərdəndir.

2013-cü ildə Azərbaycan Televiziyasının "Azərbaycantelefilm" Yaradıcılıq Birliyində "Salman Mümtaz" adlı film istehsal olunmuşdur. Qısa süjet xəttinin ssenarisi Xaliq Rəhimli tərəfindən qələmə alınmış, Murad Quliyev tərəfindən ekranlaşdırılmışdır. Filmdə alim, tədqiqatçı, şair Salman Mümtazın həyat və yaradıcılığı öz əksini tapmışdır. Sənədli ekran əsərinin operatoru isə Zahid Bağırov olmuşdur.

Salman Mümtazın 140-illik yubileyi ilə əlaqədar kitabxanalarda keçiriləcək tədbirlərdən biri *"Fiziki və mənəvi həyatını millətinin azadlığı uğrunda paymal etmiş alim"* adlı **dəyirmi masa** ola bilər. Tədbir oxucuların iştirakı ilə kitabxanada keçirilir. İlk olararaq kitabxanaçı səhnəyə çıxıb qonaqları salamlayır və sonra Salman Mümtazın yaradıcılığı haqqında qısa məlumat verir.

***Kitabxanaçı:*** 1937-ci ilin mart ayında ən yüksək nöqtəsinə çatan Stalin repressiyası Salman Mümtazdan da yan keçmədi. Buna səbəb kimi Hüseyn Cavid, Seyid Hüseyn və Atababa Musaxanlı ilə yanaşı "Bakinski raboçi" qəzetində buraxdıqları "ideoloji səhvləri" göstərildi. Eyni ilin 10 iyun tarixində Salman Mümtaz Azərbaycan Yazıçılar Birliyindən azad edildi. 1937-ci il 10 – 12 iyun tarixlərinddə Salman Mümtaz "xalq düşməni" olaraq adlandırıldı. İyun ayının 19-da Salman Mümtazı burjua milliyətçisi və pantürkist mövqeli şəxs kimi tutduğu vəzifələrdən azad etdilər. Azərbaycan Elmlər Akademiyasının Mərkəzi Arxivində saxlanılan Salman Mümtazın şəxsi həyat məlumatında AzFAN Dil və Ədəbiyyat İnstitutunun rəhbəri A. Əhmədov tərəfindən 19 iyun 1937-ci il tarixli, №-26 prikaz saxlanılır.

*Kitabxanaçının çıxışından sonra qaonaqlar öz çıxışlarına keçid aldı.*
***Ədəbiyyat müəllimi:*** Nə qədər ki, əcəl gəlməyib xalqın yaddaşındakıları ağ kağızlara köçürmək, onun folklorunu, qədim əlyazmalarını səhifə-səhifə, yarpaq-yarpaq toplamaq son məqsədimdir, bundan mənim millətimə, vətənimə, türk dünyasına azacıq da olsa xeyir dəysə, onda özümü dünyanın xoşbəxti hesab edəcək, qəbirdə rahat uyuya biləcəyəm". -
*Salman Mümtaz bunları dedi və elədi də.*
Həyatının böyük hissəsini axtarışlarla, əlyazmaları toplamaqla keçirən Salman Mümtazın (Əsgərov Salman Məmmədəmin oğlu) bu gün doğum günüdür.
Ələsgərov Salman Mümtaza 1956-cı il noyabrın 16-da SSRI Ali Məhkəməsi tərəfindən ölümündən sonra bəraət verildi. Salman Mümtazın işinə aid ittihamnamə ləğv edildi.
13 sentyabr 1996-cı ildə Azərbaycan ədəbiyyatı qarşısında xidmətlərini nəzərə alaraq Azərbaycan Dövlət Ədəbiyyat və İncəsənət Arxivinə Salman Mümtazın adı verilməsi ilə bağlı qərar qəbul edilmişdir..

* * *

Onun ilk şeiri "Molla Nəsrəddin"də çap olunub. Bu jurnaldakı ilk məqaləsi isə 1906-cı il 25 avqustda "Aşqabad xəbərliklərindən" başlığı altında çap olunan yazıdır. Bu xəbərlərdə Aşqabad, Səbzivar, Nişapur, Qoçan, Məşhəddə baş verən hadisələr barədə məlumat verilirdi.
Sonralar "Molla Nəsrəddin" haqqında yazırdı:
"1906-cı ildə "Molla Nəsrəddin" məcmuəsi çıxmağa başlarkən bir oxucu sifəti ilə mənim də diqqətimi cəlb etdi. Çünki xalqımızın belə bir məcmuəyə çoxdan ehtiyacı vardı".
Onun ilk imzaları "Xortdan bəy", "Sərçəqulu bəy" idi. Tezliklə Salman Mümtazın yazıları "Zənbur", "Kəlniyyət", "Tuti", "Qardaş köməyi" jurnalları və "Səda", "Günəş",

“Tərəqqi”, “İqbal”, “Yeni iqbal”, “Açıq söz” kimi qəzetlərdə yayımlanır. O, artıq Mirzə Cəlil, Sabir, Haqverdiyev, Nərimanov, Ordubadi, Ömər Faiq, Firudin bəy Köçərli, Seyid Hüseyn, Abbas Səhhət, Məhəmməd Hadi və dövrün digər tanınmışları ilə dostluq edir, “Molla Nəsrəddin”in Türküstanda yayılmasına çalışırdı.

Bu dövrdə “Ölülər”i Aşqabadda tamaşaya qoymaq istəyib, lakin şəhər polis idarəsinin təzyiqi ilə üzləşib. Sabirin ölümündən sonra onun ailəsinə dəstək olub, əsərlərinin çap edilməsinə səy göstərib. 1913-cü ildə “Molla Nəsrəddin” jurnalında onun Aşqabadda yığdığı ianənin siyahısı verilib. Abbas Səhhət “İqbal” qəzetində bu əməyinə görə ona təşəkkür edib. Sabirlə ilk dəfə 11 yaşında, 1893-cü ildə Aşqabadda tanış olub, 1910-cu ildə Bakıya gələndə “İslamiyyə” mehmanxanasında onunla görüşüb. Sonralar şairin ölümündən təsirlənərək “Böyük Sabirə” adlı şeirini yazıb.

Salman Mümtaz Yusif Vəzir Kiyevdə təhsil alarkən “Kiyev müsəlman tələbələri cəmiyyəti”nə də ianə yardımı edib. Onun ən yaxın dostlarından biri Abbas Səhhət idi, onun haqqında kitab da yazıb, lakin o kitab günümüzə çatmayıb. Abbas Səhhət haqqında yazdığı xatirələrində Səhhətin “Əli və Aişə” adlı romanının, “Volqa səyahətnaməsi”, “Səyavuş” adlı əsərlərinin olduğunu yazıb, lakin bu əsərlər də yoxa çıxıb.

Salman Mümtazın sonralar istifadə etdiyi imzalar bunlar idi: “Vasvası”, “Turxan”, “Mömin çinovnik”, “Eşşək arısı”, “Sağsağan”, “Çalağan”, “Qorxaq” və s. Onun “Molla Nəsrəddin”də ən maraqlı əsəri Ə.Haqverdiyev və Q.Şərifovla müştərək yazdığı “Mozalan bəyin səyahətnaməsi”dir. Əsər Marağalı Zeynalabdinin “İbrahim bəyin səyahətnaməsi”nin

təsiri altında yazılıb və mövhumata qarşı kəskinliyi ilə seçilib.
1909-cu ildə Salman Mümtaz plan tərtib edərək jurnalın Buxara, Xivə, Orenburq, Zabaykal, Semireçye və Sibirin bir sıra şəhərlə- rində yayılmasına çalışıb, bir il ərzində həmin əraziləri gəzib. Onun bu zəhmətini qiymətləndirən Mirzə Cəlil 1916-cı ildə çap etdiyi "Nigarançılıq" kitabının üzərində "Molla Nəsrəddinin həqiqi dostu Salman Əsgərov naminə yadigar" sözlərini yazıb.
O yazırdı:
"Mən üfüqlərdən doğmaqda olan yeni, qüdrətli türk-islam dünyasını, ana Turanı görürəm. Turan bütün türk qövmlərini öz bayrağı altında toplaya bilən qüdrətli və ədalətli bir dövlət olacaq. Bu dövlət dünya xalqlarına əbədi sülh və səadət gətirəcək, dünyanın hər yerində haqq və ədaləti müdafiə edəcək, zülmə qarşı mübarizə aparacaq, bəşər övladının dinc şəraitdə yaşaması, günahsız körpələrin müharibə qurbanlarına çevrilməməsi, anaların bir də övladları üçün göz yaşı tökməməsi üçün bütün imkanlarından istifadə edəcək"...
*Azərbaycan klassik ədəbiyyatının cəfakeş toplayıcısı*
1937-ci ildə Salman Mümtazın bir yük maşını həcmində əlyazmaları yandırılıb.
Bu il anadan olmasının 140 ili tamam olan, Azərbaycan ədəbiyyatı tarixində ədəbiyyatşünas, folklor toplayıcısı kimi imzası tanınmış Salman Mümtazın özünəməxsus xidmətləri var. Onun ən çətin dövrdə - 20-ci yüzilin əvvəllərindən başlayaraq Azərbaycan ədəbiyyatı və mədəniyyətinin soraqlarını böyük bir sayğıyla, inadla toplaması, kitablaşdırması xəlqi dəyərlərə ciddi sayğı, sevgi hadisəsidir. Baxmayaraq ki, Salman Mümtaz imkanlı ailədən idi, özünə hər cür şərait yarada bilərdi. Ancaq o, gözəl anlayırdı ki, yalnız xalqın yaratdıqlarını qoruduğu, yaşatdığı, artırdığı,

inkişaf etdirdiyi dərəcədə var ola biləcək. Salman Mümtaz isə hətta elini-yurdunu, rahatlığını buraxıb uzaq ellərədək gedib çıxmış, getdiyi yerlərdə Azərbaycan, eləcədə Türk Dünyasının ədəbiyyat, mədəniyyət soraqlarını axtarmışdı.

Bu gün Dövlət Ədəbiyyat və İncəsənət Arxivi Salman Mümtazın adını daşıyır. Anadan olmasının dönəmində arxivin direktoru Maarif Temurla Salman Mümtazın həyat yolu, yaradıcılığı barədə söhbətləşdik. M.Teymur deyir: "Salman Mümtaz Azərbaycan ədəbiyyatı tarixinə, mədəniyyətinə, incəsənətinə böyük bir sevgi və məsuliyyətlə yanaşan şəxsiyyət olub. O, Şəkidə imkanlı bir ailədə anadan olub. Taleyi elə gətirib ki, ailə vəziyyəti ilə bağlı Orta Asiyada yaşamalı olublar. Atası ticarətçi idi, bu səbəbdən də Azərbaycandan ora köç edib. Salman Mümtazın uşaqlığı çox maraqlı keçib. Hafizəsi güclü, elmlərə marağı qarşısı alınmaz idi. Uşaqlıqdan başlayaraq fars və ərəb dillərin mükəmməl öyrənib. Atasının da marağı olub ki, oğlu savadlı olsun. Beləliklə, atasının da istiqamətləndirməsi ilə Salman Mümtaz qədim kitabələri öyrənməyə başlayıb".

1918-ci illərdə ailəsilə birgə Bakıya qayıdıb. Bu dönəmdən əvvəl də o, "İqbal", "Şəlalə" və başqa mətbu orqanlarda çıxış edib. 1918-1920-ci illərdə "Azərbaycan" qəzeti ilə əməkdaşlıq edib: "1920-ci ildən sonra əvvəlki dönəmdən fərqli ictimai-siyasi vəziyyətdə Salman Mümtaz bütün varlığı ilə Azərbaycan klassiklərinin yaradıcılığından soraqları toplamağa və araşdırmağa başlayıb. Təkcə bir faktı demək kifayətdir ki, Salman Mümtaz 1920-1925-ci illərdə 200-ə qədər Azərbaycan ədəbiyyatı nümayəndələrinin irsindən soraq verən müxtəlif kitabları, kitabçaları, əlyazmaları toplayıb. 1937-ci ildə həbs olunarkən min bir əzab-əziyyət bahasına topladığı bir yük maşını həcmində əlyazmaları məhv edilib".

Salman Mümtazın inadlı araşdırmalarının yarıda qırılması Azərbaycan ədəbiyyatşünaslığına, mədəniyyətinə böyük zərbə oldu. Onun ərəb və fars dillərini mükəmməl bilməsi müxtəlif əlyazmaları toplamasında, araşdırmasında karına gəlirdi. Bu gün Salman Mümtazın topladığı əlyazmaların çox az qismi bizə gəlib çatıb. Azərbaycan folkoruna dair xeyl sayda toplamaları da olduqca qiymətlidir: "Azərbaycan latın qrafikalı əlifbaya keçdikdən sonra Salman Mümtaz sabaha qalsın deyə, ləngimədən latın əlifbasını da mükəmməl öyrənib, topladığı soraqlardan bu əlifbaya köçürüb. Bu gün Salman Mümtazın şəxsi fondunda topladığı folklor nümunələri ilə yanaşı Azərbaycan klassik ədəbiyyatı nümayəndələri Nizami Gəncəvi, Məhəmməd Füzuli, İmadəddin Nəsimi, Seyid Əzim Şirvani, Mirzə Ələkbər Sabir və başqaları ilə bağlı topladıqlarının az bir qismi bizə gəlib çatıb. Salman Mümtaz ədəbiyyatımızın əsil cəfakeşi olub. Onun fədakarlığı indiki və gələcək nəsillərimiz üçün nümunədir".

Salman Mümtaz eşidəndə ki, filan yerdə filankəsdə bir qiymətli əlyazma var. Belə də o, ləngimədən həmin yerə gedər, çoxlu pul vermək bahasına da olsa, həmin əlyazmanı alarmış, nağdı pulu olmadıqda qiymətli bir əşyasını girov qoyarmış. Bu, əsl yurddaşlıq, xalqın mənəvi sərvətinə təəssübkeşlik nümunəsidir: "1999-cu ildə Türkiyədə Məhəmməd Gəngərli ilə görüşərkən söhbət Salman Mümtazdan düşükdə, o, dedi: " Heyf Salman Mümtazdan. O, çox gözəl, əvəzsiz yaradıcı folklor toplayıcısı idi. Heç bir mənbəni təhrif etməzdi". Məndən soruşanda ki, irsindən, topladıqlarından nə var, dedim müəyyən soraqları bir yerə yığmışıq. Dedi Salman Mümtaz həqiqi ədəbiyyat aşiqi idi".

Maarif Teymur daha sonra deyir ki, Salman Mümtazın bütün topladıqları, yazdıqları min bir fəlakətə tuş gəlsə də, bununla belə, özündən sonra zəngin irs qoyub gedib.

Ancaq bundan sonra da bu cəfakeş insanın yaradıcılığı daha geniş araşdırılacaq, barəsində daha çox yazılacaq. Habelə S.Mümtazın qələmindən çıxan bədii-tarixi əsərlərin araşdırılması da çox maraqlıdır. Onun toponimika, etnoqrafiyaya dair əsərləri də var. Bu şəxsin Azərbaycana sevgisi o qədər tükənməz olub ki, təbiətin ona verdiyi qabiliyyəti yalnız toplayıcılığa, araşdırıcılığa və yazmağa həsr edib. Onun ömrü demək oar, əlində əsa, çiynində heybə, ayağında çarıq olan dərviş təki keçib. Bir əlyazmasında foklorunu topladığı bölgənin coğrafiyası haqqında da bilgi verir. Təəssüf ki, 37-ci ilin amansız repressiya dalğası Salman Mümtazın böyük arzularına son qoydu".

Salman Mümtazın şəxsi irsinin toplanılmasına gəlincə, M.Teymur deyir ki, araşdırmaçı Rasim Tağıyev bu irsdən qalan nə varsa, onları bir yerə toplayıb, "Yaşıl yarpaqlar" adlı kitab buraxıb. Habelə Salman Mümtaz haqqında ayrı-ayrı şəxsi fondlarda müəyyən soraqlar var: "Mümtaz haqqında araşdırmaların sayı artmaqdadır. Ötən yüzilin 50-60-cı illərində isə Salman Mümtaz unudulmaq təhlükəsi ilə üz-üzə qalmışdı". Salman Mümtazın Sabirlə olan canlı söhbəti necə böyük maraqla, sevgiylə qələmə almasını buradaca qeyd etmək gərəkdir. Hiss olunur ki, bu yazıda onun qabiliyyəti ilə məsuliyyəti birləşib: "Salman Mümtazın Sabirlə dostluğu olub. O, çalışıb ki, Sabirlə bağlı bildiyi bütün məqamları qeydə alsın".

Yuxarıda qeyd etdiyimiz kimi Salman Mümtazın əksər əlyazmaları 37-ci ildə yandırılıb. Kim bilir, bəlkə də o əlyazmalarda neçə-neçə orijinal, bəlkə də bizə bu gün ümumiyyətlə, məlum olmayan soraqlar varmış? Salman

Mümtaz ömrünün son gününə qədər toplayıcılıqla məşğul olub. Bu mənada o, Azərbaycanda toplayıcılığın rəmzi kimi anılmaqdadır. Zamanında tanınmışlardan kimsə vəfat edərkən bacardıqca həmin şəxslə bağlı bütün soraqları toplayıb, yazıb sabaha çatdırmağa çalışarmış...
Salman Mümtazın yubileyi ilə əlaqədar kitabxanalarda keçiriləcək tədbirlərdən biri də, "Ədəbiyyat aşiqi - Salman Mümtaz" adlı şeir müsabiqəsidir. Kitabxanaçı ilk öncə ədibin bir neçə şeir kitabını məktəblilərə təqdim edir. Məktəblilər müəyyən etdikləri şeiri əzbərləyərək təyin edilmiş tarixdə kitabxanaya gəlirlər. Qonaqlar və münsiflər öz yerini aldıqdan sonra kitabxanaçı hər kəsi salamlayaraq tədbirə keçid alır. O, ilk olaraq Salman Mümtazın həyat və yaradıcılığından, onun ömür yolundan, əsərlərindən və kitablarından söhbət açır. Nəfis şəkildə nəşr olunmuş kitablar hər kəs tərəfindən rəğbətlə qarşılanır. Kitabxanaçı səhnəyə yaxınlaşaraq qonaqları salamlayır və şair haqqında qısa məlumat verir:
*Kitabxanaçı:* Milli ədəbiyyatımızın tanınmasında böyük xidmətləri olmuş Salman Mümtaz ömrünü Azərbaycan klassik şairlərinin əsərlərinin, aşıq poeziyası və xalq folklor nümunələrinin toplanmasına və nəşrinə sərf edib.
Bu il anadan olmasının 140 illiyini qeyd etdiyimiz görkəmli mətnşünasın həyat və yaradıcılığının xronologiyasını qısa da olsa bir daha gözdən keçirmək istərdik. Buna görə də iştirakçıları ədibin kitabxanamız tərəfindən tərtib edilmiş *"Parlaq ömür adamı"* adlı video-çarxa tamaşa etməyə dəvət edirəm.
Daha sonra iştirakçılar şeir söyləmək üçün səhnəyə yaxınlaşırlar.

*I iştirakçı:* **"O mələkzadəni mütləq sevirəm"**

Şeri-Cavidi görüb gülmüş idim,
Demə, biçarədə yoxdur təqsir.
Qəhqəhəylə uğunub ölmüş idim,
Səbribəyzadədən imiş təğyir,
Bən onu çox sevirəm, gop sevirəm.

Yeni şair, o müdiri-məğlub,
Görmüşə gülmüşü qılmışdı rədif,
Gərək, əlbəttə, dəyişsin üslub,
Qaba Qafqaz dilin etsin də zərif,
Bən onu gop sevirəm, çox sevirəm.

Gör nə xoş qafiyələr işlətmiş:
Diqqət et, ağlayaraq, sallayaraq,
Üdbayə dodağm dişletmiş,
İki dedim, iki dedin sayaraq,
Bən onu gop sevirəm, gop sevirəm.

Heyfsən, qəti-ümid etmə, gözüm,
Sən ki, varsan, səmər eylər Qafqaz,
Hər söz ilə dəlirib, bitmə, gözüm,
Dediyin, işlədiyindir dəmsaz,
Səni bən çox sevirəm, çox sevirəm.

Kədərim yox, sevərim bən səni çox,
Gözəlim, noəməlim, bibədəlim,
Şüəra çeşminə əşannı sox,
Sən xuram et, dalıdan bən də gəlim,
Səni bən hey sevirəm, gop sevirəm.

*I iştirakçı:* **“Bu da yahu keçər”**

Qonşuların elmə həvəskar ola,
Tibb oxuya, fənnə xəberdar ola,
Leyk müsürman gedə cindar ola
Dinmə, danışma, bu da yahu, keçər.

Rus minə ominibosu, seyr edə,
Nems minə derjabili teyr edə,
Molla Cəfər həmzadı təxsir edə,
Dinmə, danışma, bu da yahu, keçər.

Xivə xanı saxlaya altmış bala,
Sim bədən, zəhrəcəbin, göz ala,
Məsti-meyü şəhvət olub dal qala,
Dinmə, danışma, bu da yahu, keçər.

Əbdüləhəd xan sata milləti,
Badə verə namus ilə qeyrəti,
Puç eyləyə Rusiyyədə sərvəti,
Dinmə, danışma, bu da yahu, keçər.

Kərpic atan millətə salar ola,
Qatır satan ləşkərə sərdar ola,
Sırf avam şəxs süpəhdar ola
Dinmə, damşma, bu da yahu, keçər.

Layihə təqdim edə İngiltərə,
Hökm verə zabitə, həm əsgərə,
Daxil edəLəngə ilə Bəndərə,
Dinmə, danışma, bu da yahu, keçər.

Hacı Məmiş ayda bir arvad ala,
Keyf eyleyə, işrət edə, dad ala,
Xansənəmi boşlaya, Pərzad ala,
Dinmə, danışma, bu da yahu, keçər.

Bəylərimiz qasdinara keyf edə,
Dəstə ilə fahişəni zeyf edə,
Verməyə pul millət üçün heyf edə,
Dinmə, danışma, bu da yahu, keçər.

İntelligentlər gezələr naz ilən,
Gülşənara dilbəri-tənnaz ilən,
Evdə qala Gülpəri Çimnaz ilən,
Dinmə, danışma, bu da yahu, keçər.

Beləliklə digər iştirakçılar da ard-arda öz şeirlərini qiraətli şəkildə söyləyirlər. Sonda münsiflər heyəti qiraəti ilə fərqlənən iştirakçıları mükafatlandırır.
Şair, ədəbiyyatşünas, mətnşünas, kitabşünas, biblioqraf, 1934-cü ildən Azərbaycan Yazıçılar Birliyinin üzvü Salman Mümtazın 140-illik yubileyi ilə əlaqədar olaraq keçirilən maraqlı tədbirlərdən biri də ədəbi-bədii gecədir. "Yeni türk hekayəçisi" adlı ədəbi-bədii gecə keçirilir. Gecədə Azərbaycanın görkəmli ədibləri; şair və yazıçılar, sənət-söz adamları, bəstəkar və müğənnilər, oxucular, məktəblilər iştirak edir. Qonaqlar ədibin şəkilləri, müxtəlif adda əsər başlıqları və şeir misraları yazılmış çərçivərələrlə bəzədilmiş zalda öz yerlərini alırlar. Gecənin əvvəlində tədbir iştirakçılarına Salman Mümtazın həyat və yaradıcılığından bəhs edən slayd təqdim olunur. Sonra aparıcılar səhnəyə yaxınlaşır.

***I aparıcı:*** O, Şəkidə doğulub. 1884-cü ildə. Babası varlı olub. Ancaq ömrünün sonlarına yaxın var-dövləti yanaraq məhv olub. Oğlu balaca Məhəmməd əmisinin himayəsində qalıb. Məhəmməd gənc yaşlarında Məşhəd ziyarətinə gedir və qayıdanda yolunu Aşqabaddan salır. Ordan torpaq və mülk ala bilir özünə. Az vaxt ərzində xeyli varlanır. Amma ailəsini Aşqabada aparmaq istəyirmiş ki, qəflətən dünyasını dəyişir. Onda Salmanın 3 yaşı vardı.

***I aparıcı:*** *Qorkinin dostu, Axundovun qohumu*

Mirzə Fətəli Axundovun uzaq qohumu olan anası Zəhra ağıllı və bacarıqlı qadın idi. Qardaşlarının köməyi ilə Aşqabada gedir və ərinin var-dövlətinə yiyə durur. Az sonra oğlanları Salmanı və Əsgəri də yanına aparır. Hələ onlar balaca ikən adlarına iri bir sandıq ayırır, uşaqlar böyüyənə qədər içini qızılla doldurur. Bu həmin qızıllardır ki, sonralar Salman Mümtaz onları Azərbaycan ədəbiyyatının toplanması üçün xərcləyəcəkdi.

Salman Mümtaz ədəbi sərvətlərimizi toplamaq üçün təkcə qızıldan istifadə etmir, demək olar ki, bütün mümkün yollara əl atırdı. Hətta bu barədə onun məşhur bir zarafatı da var: "Kitab verənin bir əli, qaytaranın iki əli kəsilməlidir!"

Amma, təbii ki, maddi imkan ən önəmlisi idi. Yoxsa hər sorağını aldığı mətnin ardınca Azərbaycanın ən ucqar bölgələrinə, üstəlik Dağıstana, Gürcüstana, Ermənistana, Rusiyaya, Orta Asiyaya getmək çətin olardı.

Həmin sandıq sonralar evin bir küncünə qoyulur və təmir işləri ilə məşğul olan fəhlələr onu lazımsız əşya hesab edərək ev yiyələrindən xəbərsiz aparıb atırlar.

***I aparıcı:*** *Mirzə Ələkbər Sabirlə görüş*
S.Mümtaz pərən-pərən düşmüş mənəvi dünyamızı bütövləşdirmək, bir araya gətirmək üçün bütün ömrünü verdi, sonda isə bu parlaq əməllərin əvəzini öz canı ilə "ödədi".
Onun həyatında dönüş nöqtəsi 9 yaşında – Mirzə Ələkbər Sabirlə görüşündən sonra başladı. Bu görüşdən sonra onun ədəbiyyata sonsuz sevgisi yarandı. Əslində sevgi var idi, sadəcə Sabirlə görüş onu alovlandırdı, üzə çıxardı.
Onun Sabirlə ikinci görüşü 1910-cu ildə baş tutur və böyük şairin tövsiyəsi ilə "Molla Nəsrəddin"ə məqalələr yazmağa başlayır. Salman Mümtazın təhsili də qəribədir: cəmi 3 ay molla yanında olub! Ancaq öz üzərində çalışaraq 23 yaşına qədər rus, ərəb və fars dillərini öyrənir və Şərq dünyasının ən əhəmiyyətli kitablarını oxuyur. Onun hafizəsi heyrətamiz dərəcə güclü idi... Türk dillərinə də böyük marağı olduğundan özbək, qırğız və türkmən dillərini də öyrənmişdi. Elə təxminən həmin vaxtlardan Azərbaycan ədəbiyyatı ilə bağlı materiallar toplamağa başlayır.
***II aparıcı:*** Onun həyatında ikinci ciddi dönüş sorağı Aşqabada da gəlib çıxan "Molla Nəsrəddin" jurnalı ilə tanışlıqdan sonra başlayır və S.Mümtaz tezliklə jurnalın fəal əməkdaşına çevrilir.
"İqbal" qəzeti 1913-cü ildə yazırdı: "Salman Əsgərov cənabları Qafqaziyada vaxtımızın ən müqtədir 11 şairlərindən sayılan bir zat olub, "Molla Nəsrəddin" jurnalında özünün pürməna 12 şeri ilə millətimizin nöqsanlarını göstərir, nicatına yol göstərməkdə qələmiylə xidmət edir".
***I aparıcı:*** *Mirzə Cəlillə dostluq*
1913-cü ildə Salman Mümtaz "Seyid Əhməd Hatif İsfahaninin tərcibəndi və tərcümeyi-halı" adlı ilk kitabını Tiflisdə Mirzə Cəlilin "Qeyrət" mətbəəsində çap edir və 3 ay

bu şəhərdə qalır. Abbas Səhhətlə tanış olur, onun ədəbiyyat bilgiləri dövrünün ən böyük ziyalılarından olan Abbas Səhhəti xeyli təəccübləndirir. İki il öncə dünyasını dəyişmiş Sabirin “Hophopnamə”sini buraxmaq üçün xeyli maddi yardım göstərir.

S.Mümtazın Mirzə Cəlillə dostluğunun tarixi də ilk kitabının nəşri vaxtına təsadüf edir. “Molla Nəsrəddin”in nəşrinə xeyli köməklik göstərir. Sonralar “Ölülər” əsərinin Aşqabadda səhnələşdirilməsi üçün çox çalışsa da, hökumət bu işə əngəl törədir.

***II aparıcı:*** S.Mümtaz Maksim Qorki ilə də yaxın dost olub. SSRİ Yazıçılarının birinci qurultayında o, böyük yazıçı ilə görüşüb. Daha doğrusu Maksim Qorki Azərbaycan yazıçıları ilə görüşüb və bir neçə foto çəkdirib. Fotolarda Salman Mümtaz Maksim Qorkinin yanında əyləşib.

***I aparıcı:*** Və… 1937

İyunun 19-da onu burjua millətçisi və pantürkist kimi tutduğu vəzifələrdən azad etdilər. Ancaq o, yenə də nadir əlyazmaları, kitabları toplayıb araşdırırdı. Uzun illər yorulmaq bilmədən çalışır, arı hər çiçəkdən şirə gətirdiyi kimi, o da əldə etdiyi qiymətli əlyazmaları "Kitabxaneyi-Mümtaziyyə"sinə toplayırdı. Vaxtının əsas hissəsini də orada keçirirdi.

Ancaq Azərbaycan xalqına düşmən kəsilən rejim bunu ona bağışlamadı. 1937-ci ilin 8 oktyabrında axşam saat 11-də yaşadığı Buynakski, 25 (indiki Şeyx Şamil küçəsi) ünvanında siyasi dustaq kimi həbs olundu. 1941-ci ilin 21 dekabrında Moskvadan siyasi dustaqlar barədə ölüm hökmü verildi. Əmrin icrasına təcili başlanıldı və minlərlə insan kimi Salman Mümtaz da qətlə yetirildi. 1956-cı il noyabrın 16-da isə SSRİ Ali Məhkəməsi tərəfindən ölümündən sonra bəraət verildi və ona aid ittihamnamə ləğv olundu.

Bəzi mənbələrdə S.Mümtazın xəstələnərək öldüyü söylənir. Onun ailəsinə verilən ölüm haqqında şəhadətnamədə isə, açıqca Rusiyanın Oryol şəhərində işləyərkən beyninə qan sızdığı üçün vəfat etdiyi qeyd olunur.
Həqiqət isə belədir: Salman Mümtaz əvvlcə Orenburqa, sonra Oryola aparılır. Məlumat üçün bildirək ki, o zaman Oryola tanınmış alimləri sürgün edirdilər. Alman faşistləri Oryolu almaq üzrə ikən Stalinin razılığı və Beriyanın əmri ilə burdakı dustaqlar hamısı güllələnir. Onlara özləri üçün qəbir qazdırırlar və güllələdikdən sonra hərəsini öz qazdığı məzara gömürlər. Bu dəhşətli günün tarixi isə rus mənbələrində 1941-ci ilin 6 sentyabrı kimi göstərlir.
***I aparıcı:*** Qətliamın daha dəhşətlisi...
KQB-nin onu son dərəcə diqqətlə izləməsinə baxmayaraq Salman Mümtaz 1920-25-ci illər arası 200-ə qədər klassikimizin hər birini təxminən 25-35 səhifə həcmində araşdırıb bizə təqdim etmişdi. Onun işləməsinə, elə bil ki, qəsdən şərait yaradırdılar. Bir növ, xəzinənin toplanmasına imkan verirdilər ki, hamısını birdən məhv etsinlər.
Onun bir otaq dolu əsərini yandırdılar. Bunu Məhəmməd Kəngərli də təsdiq etmişdi. Zülmlə topladığı arxivi məhv etdilər.
Salman Mümtazın arxivində "Kitabi Dədə Qorqud" da daxil olmaqla 238 əlyazma olub. Bunların içərisində indinin özündə də Azərbaycan ədəbiyyatşünaslığına məlum olmayan divanlar da varmış...
Vaxtı ilə Azərbaycan Şurəvi Respublikası Mərkəzi Komitəsinin katibi işləmiş İman Mustafayev sonralar etiraf edib ki, Salman Mümtazın repressiyasından sonra onun arxiv materialları DTK binasının həyətində balaca təpəcik kimi qalaqlanmışdı. Hətta bu dəyərli materiallardan DTK-nın yeməkxanasında peraşki bükmək üçün də istifadə olunduğu

söylənir. Bir nəfər varağın yazılı tərəfinə diqqət edəndə onun Füzulinin divanından bir hissə olduğunu görür...
Ancaq “Qantəmir tükü haqqında” məqaləsi, Şəkixanov haqqında xüsusi qeydləri, M.Ə.Sabirin ilk “Taziyanə”si, “Həqiqət” qəzetində “Təbib və ya xəstə” adlı yazısı, Azərbaycan Dövlət Nəşriyyatı ilə müqaviləsi, şeirləri, məktubları, qəbzləri bu gün onun şəxsi fondundadır. Onların bir hissəsi isə Füzuli adına Əlyazmaları İnstitutunda saxlanılır...
***II aparıcı:*** Mircəfər Bağırov Salman Mümtaza müraciət edərək, ondan bir əlyazma hədiyyə istəyir. Nə qədər inanılmaz olsa da, S.Mümtaz “Əlyazma hara, Bağırov hara?” – deyə, sərt cavab verərək, bu hədiyyəni verməkdən imtina edir. Ancaq qızıl pula aldığı Nəsimi Divanını təmənnasız olaraq “Ermitaj”a bağışlayır. Məhz buna görə də bu qiymətli xəzinə 30-cu illər repressiyasından salamat çıxa bilir.
Bu fakt bir daha sübut edir ki, S.Mümtazın topladığı əlyazmalara münasibətində əsas amil bu idi: onları gələcək nəsillərə çatdırmaq!
Şübhəsiz, kiçik bir yazı ilə Salman Mümtaz şəxsiyyətini, həyatını və onun geniş yaradıcılığını əhatə etmək qeyri-mümkündür. Biz sadəcə olaraq özünü Azərbaycan ədəbiyyatına fəda etmiş bu böyük insan barədə ən vacib məqamlara qısa şəkildə toxunmağa çalışdıq..
Onu unutmaq olmaz!
I aparıcı: Salman Mümtaz 10 il müddətinə azadlıqdan məhrum edilərək Rusiyanın Oryol vilayətinə sürgün olunur. 1941-ci ilin sentyabrında Oryol şəhəri yaxınlığında Medvedski meşəsində güllələnir.
1956-cı ildə bəraət almış milli söz irsimizin qoruyucusu Salman Mümtazın həyatı bax belə faciəli şəkildə sonlanır.

## Ədəbiyyat siyahısı

***Kitabları***

Əhməd Hatif İsfahaninin bioqrafiyası. 1913.
Ağa Məsih Şirvani. Bakı: Kommunist. 1925. səh. 3—10.
Molla Pənah Vaqif. Bakı: Kommunist. 1925. səh. 3—47.
Nişat Şirvani. Bakı: Kommunist. 1925. səh. 3—11.
Məhəmmədhüseyn xan Müştaq. Bakı: Kommunist. 1925. səh. 3—32.
Qövsi. Bakı: Kommunist. 1925. səh. 3—9.
Kərbalayi Allahı Arif. Bakı: Kommunist. 1925. səh. 3—4.
Nitqi Şirvani. Bakı: Kommunist. 1925. səh. 3—4.
Qasım bəy Zakir. Bakı: Kommunist. 1925. səh. 3—24; 357.
Mirzə Şəfi Vazeh. Bakı: Kommunist. 1926. səh. 3—6.
Seyid İmadəddin Nəsimi. Bakı: Kommunist. 1926. səh. 3—9.
Baba bəy Şakir. Bakı: Azərnəşr. 1927. səh. 5—9.
Aşıq Abdulla. Bakı: Azərnəşr. 1927. səh. 7—20.
Xalq şairləri. Bakı: Kommunist. Birinci nəşr: 1927 (I cild), 1928 (II cild). İkinci nəşr: 1935 (I cild), 1936 (II cild).
Mehdi bəy Şəqqaqi. Bakı: Azərnəşr. 1928. səh. 3—8.
Ağabağır Şirvani. Bakı: Azərnəşr. 1928. səh. 3—5.
Mirzə Nəsrulla bəy Didə. Bakı: Azərnəşr. 1928. səh. 6—12.
Vaqif (İ. Cahangirovla həmmüəllif). Bakı. 1933.
Sarl Aşıq və onun bayatıları. Bakı. 1935.
Salman Mümtazın redaksiyası ilə. Molla Vəli Vidadi. Şeirlər. Bakı: Azərnəşr. 1936. səh. 11—18.

***Məqalələri***

Mirzə Şəfi. № 1. Bakı: "Qurtuluş" jurnalı. 1920. səh. 7—8.
Zövqi. № 2. Bakı: Qurtuluş jurnalı. 1920. səh. 13–14.
Azərbaycan şairi: Naşa. № 1. Bakı: "Füqəra füyuzatı" jurnalı. 1920. səh. 20—22.

Rudəki və Molla Pənah Vaqif. № 2. Bakı: "Füqəra füyuzatı" jurnalı. 1920. səh. 18—21.
Sultanuş-Şüəra Həbibi. № 3. Bakı: "Füqəra füyuzatı" jurnalı. 1921. səh. 31—35.
Nəsimi. № 1. Bakı: "Maarif və mədəniyyət" jurnalı. 1921. səh. 7—8.
Azəri Çələbi. № 2. Bakı: "Maarif və mədəniyyət" jurnalı. 1923. səh. 23.
Xalq şairi Qurbani. № 2—3. Bakı: "Maarif və mədəniyyət" jurnalı. 1923. səh. 108—110.
Şah İsmayıl Xətai. № 3; 4-5; 8-9. Bakı: "Maarif və mədəniyyət" jurnalı. 1923. səh. 30—33; 30—33; 9—16.
Türkmən şairləri. № 8—9. Bakı: "Maarif və mədəniyyət" jurnalı. 1923. səh. 9—10.
Şahbeyt və Barcast. № 10. Bakı: "Maarif və mədəniyyət" jurnalı. 1923. səh. 17—18.
Dilmac. № 253. Bakı: "Kommunist" qəzeti. 9 noyabr 1923. səh. 7.
Ağa Məsih. № 1. Bakı: "Şərq qadını" jurnalı. 1924. səh. 7—8.
Nəsihətnamə. № 4. Bakı: "Maarif və mədəniyyət" jurnalı. 1924. səh. 36—38.
Səfi. № 1 (21). Bakı: "Maarif və mədəniyyət" jurnalı. 1925. səh. 30—33.
Şahi. № 3. Bakı: "Maarif və mədəniyyət" jurnalı. 1925. səh. 20—21.
Qəlblərin Rəbbi. № 11. Bakı: "Kommunist" qəzeti. 18 may 1925. səh. 5.
Füzuli gecəsini xatırlamaq üçün... № 18. Bakı: "Kommunist" qəzeti. 26 may 1925. səh. 2.
Şeyx Nizami. № 11. Bakı: "Kommunist" qəzeti. 28 iyul 1925. səh. 5.

Əmir Əlişir Nəvai. № 54 (465). Bakı: "Yeni yol" qəzeti. 4 mart 1926. səh. 2.

Nəvainin ədəbiyyatımıza təsiri. № 54 (1649). Bakı: "Kommunist" qəzeti. 4 mart 1926. səh. 5.

Molla Qasım və Yunis Əmrə. № 1. Bakı: "İnqilab və mədəniyyət" jurnalı. 1929. səh. 43—44.

Ənvəroğlu. № 3—4. Bakı: "İnqilab və mədəniyyət" jurnalı. 1929. səh. 49.

Diş çıxarılmasında yenilik. № 7—8. Bakı: "İnqilab və mədəniyyət" jurnalı. 1929. səh. 55—56.

Şəki xanlarının müxtəsər tarixi. № 2—3 (43—44). Bakı: "Maarif işçisi" jurnalı. 1929.

Xələk. № 8. Bakı: "Azərbaycanın araşdırma yolu" jurnalı. 1930. səh. 46—47.

Dünya şairi Firdovsi. № 9—10. Bakı: "İnqilab və mədəniyyət" jurnalı. 1934. səh. 30—35.

Ölümsüz şair. № 6. Bakı: "Ədəbiyyat" qəzeti. 2 yanvar 1935. səh. 2.

Mirzə Fətəli (Səbuhi) və Cəfərqulu xan Nəvva. № 6. Bakı: "Ədəbiyyat" qəzeti. 30 yanvar 1935. səh. 3.

Mirzə Fətəli Səbuhi və Osmanlı yazıçısı Fuad Paşa. № 6. Bakı: "Ədəbiyyat" qəzeti. 21 fevral 1935. səh. 3.

Raddilac Ələsaddar Sanati və onun yazdığı ədəbi əsərlər. № 7. Bakı: "Ədəbiyyat" qəzeti. 1 mart 1935. səh. 3.

Mirzə Fətəli Səbuhi, Mirzə Şəfi Vazeh və Molla Abbas Afişta. № 8 (27). Bakı: "Ədəbiyyat" qəzeti. 9 mart 1935. səh. 2.

Luqaz, çistan və bilməcə. № 10. Bakı: "Ədəbiyyat" qəzeti. 25 mart 1935. səh. 2.

Yüz il əvvəl Azərbaycan nəsr yazıçısı. № 5; 6. Bakı: "Ədəbiyyat" qəzeti. 11, 24 mart 1936. səh. 3; 3—4.

"Rəşid bəy və Saədət xanım" hekayəsinin müəllifi İsmayıl bəy Qutqaşınlının həyatı. № 11 (64). Bakı: "Ədəbiyyat" qəzeti. 8 iyun 1936. səh. 3.
Ölümsüz insan. № 141. Bakı: "Kommunist" qəzeti. 20 iyun 1936.
Mirzə Fətəli Səbuhi və Mirzə Məhəmməd Katib. № 19—20 (69—70). Bakı: "Ədəbiyyat" qəzeti. 31 iyul 1936. səh. 3.
Əbdülqasım Nəbati ilə bağlı xatirəm. № 21 (71), 22/72, 23/73. Bakı: "Ədəbiyyat" qəzeti. 1936. — 20 avqust, 3, 28 sentyabr. səh. 2, 3—4, 4.
Qasım bəy Zakir və İliko Çavçavadze. № 23 (108). Bakı: "Ədəbiyyat" qəzeti. 29 may 1937. səh. 1.
Sabirin xatirəsinə. Bakı: "Ədəbiyyat və incəsənət" qəzeti. 23 may 1937. səh. 8—9.

# Ədəbiyyatımızın əsil cəfakeşi
# Salman  Mümtaz

**(metodik vəsait)**

**Komputer yığımı**
**və dizayn:** **Aynurə Əliyeva**

**Ünvan:AZ-1022 Bakı şəh.,S.Vurğun küç.88;**
**E-mail:** info@clb.az.

**İnternet ünvanı: www.clb.az**